BAKIDA 10 YENİ METRO STANSİYASI TİKİLƏCƏK

# NƏQLİYYAT SEKTORUNDA CİDDİ DƏYİŞİKLİKLƏR

Ötən il nəqliyyat sektoru ciddi dəyişikliklərlə yadda qaldı. İctimai nəqliyyatla, taksilərlə bağlı xeyli nəzərəçarpacaq addımlar atıldı. Avtobus zolaqları çəkildi, velozolaqlar yaradıldı, taksilərlə bağlı yeniliklər oldu.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində qeyd edib ki, onun göstərişi ilə yeni 10 metro stansiyası inşa ediləcək: "Burada avtobus nəqliyyatını metro nəqliyyatı ilə uzlaşdırmaq məsələləri dayanır".

SƏHİFƏ 6-da



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

11 YANVAR ŞƏNBƏ 2025 № 01 (4202) Qiyməti - 60 qəpik www.kaspi.az





## MAKRONA QARŞI NARAZILIQ PİK HƏDDƏ

Makron Fransası çox ciddi sınaqlar qarşısındadır. Tez-tez təkəbbürlülükdə və özündən razılıqda günahlandırılan Fransa prezidenti ictimai narazılıqların əsas hədəfinə çevrilib.

SƏHİFƏ 5-də



## RƏSMİ BAKI MÖVQEYİNDƏ İSRARLIDIR

Prezident İlham Əliyev rəhbəri olduğu dövlətin beynəlxalq hüquq və prinsiplərə sadiqliyini göstərir. Təyyarənin "qara qutu"larının istehsalçı ölkə - Braziliyada oxunması rəsmi Bakının siyasi iradəsinin nəticəsidir.

SƏHİFƏ 4-də

QARŞILIQLI HÖRMƏTƏ ƏSASLANAN MÜNASİBƏTLƏR İSTƏYİ

# AYDIN VƏ KONKRET KONTURLAR



Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində maraqlı açıqlamalar verib. O, Azərbaycanın xarici siyasəti və ayrı-ayrı ölkələrlə bağlı ikitərəfli münasibətlərə dair mühüm məqamlara aydınlıq gətirib.

### MAKRON FRANSASININ QƏRƏZLİ MÖVQEYİ

Azərbaycana qarşı aparılan anti-təbliğatın əsas mərkəzlərindən biri Makron Fransasıdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur.

### BAYDEN ADMİNİSTRASİYASININ ƏSAS SƏHVİ

İlham Əliyev bildirib ki, Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, ABŞ-Azərbaycan münasibətləri ABŞ-Ermənistan münasibətlərinin qurbanına çevirilib.

SƏHİFƏ 3-də



## YARIM MİLYON ƏMLAKI ƏHATƏ EDƏCƏK TƏKLİFLƏR

Azərbaycanda sənədsiz evlərin sənədləşdirilməsi yenə gündəmdədir. Bununla bağlı yeni qanun və təkliflər hazırlanır. Ekspertlər isə prosesin heç də asan olmayacağı qənaətindədirlər.

SƏHİFƏ 13-də



## ŞƏXSİ MƏLUMATLARIMIZ TƏHLÜKƏDƏDİR?

İnformasiya resurslarında aşkarlanan boşluqlar 42 faiz artıb. Bu statistika insanlarda həmin sistemlərdə əks olunan şəxsi məlumatların oğurlanması ehtimalının artmasına dair narahatlıq yaradır.

SƏHİFƏ 14-də



## DƏSTƏ KİÇİLİR, QİYMƏTİ ARTIR

Son zamanlar paytaxt və rayonlardakı bazarlarda göyərti qıtlığı yaşanır, bahalaşma müşahidə olunur. Qiymət artımı ilə yanaşı, göyərti dəstələrinin ölçüsü də kiçilib.

SƏHİFƏ 15-də

"Bu epizod heç vaxt yadımdan çıxmaz"

## "MƏNƏ ARTIQ HEÇ KİM "GƏL, KİNO ÇƏK" DEMİR"



"Azərbaycanfilm"in istehsal etdiyi filmlərin əksəriyyətində onun əməyi var. O, filmlərdə əsasən rejissor assistenti, II rejissor və aktyor kimi iştirak edib. Amma Yusif Əlizadə tamaşaçıların yaddaşında daha çox bir rolla qalıb. "Yol əhvalatı" filmindəki Fərid rolu ilə. "Sənət" rubrikamızın budəfəki qonağı Yusif Əlizadədir.

SƏHİFƏ 8-9-da



## SUPER LİQA NƏHƏNGLƏRİ "ULDUZ OVUNDA"

Bu qış transfer pəncərəsinin Super Liqada çox hərəkətli keçəcəyi ehtimal edilir. Klubların mövsümün qalan hissəsindəki performansı məhz edilən transferlərdən asılı olacaq.

SƏHİFƏ 16-da



Təhlükəsizliyimiz də birdir, maraqlarımız da

SƏHİFƏ 2-də



ABŞ-ni aciz qoyan yanğınlar

SƏHİFƏ 10-da



"İnsan ömür boyu öyrənməlidir"

SƏHİFƏ 7-də

SOCAR "Yaşıl istiqraz"ların buraxılışına başlayır

SƏHİFƏ 2-də



Qorxmayaq, amma qorunaq

SƏHİFƏ 11-də



## Prezident səfirlərin etimadnamələrini qəbul edib

Prezident İlham Əliyev yanvarın 10-da Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kestutis Vaşkeleviçusun etimadnaməsini qəbul edib.

Dövlət başçısı 2022-ci ildə Litva Prezidentinin ölkəmizə, 2023-cü ildə isə özünün Litvaya rəsmi səfərlərini, ötən ilin sonunda Gitanas Nauseda ilə telefon danışığını, həmçinin bundan əvvəlki dövrlərdə Litvanın dövlət başçıları ilə təmaslarını məmnunluqla xatırlayıb, bunların ikitərəfli münasibətlərin inkişafında vacib rol oynadığını qeyd edib.

Kestutis Vaşkeleviçus Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyi yüksək qiymətləndirdiklərini deyib, Litvanın Cənubi Qafqazda davamlı sülhü və inkişafı dəstəklədiyini vurğulayıb.

Prezidenti İlham Əliyev yanvarın 10-da Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Feysal əl-Mutairinin də etimadnaməsini qəbul edib.

Dövlət başçısı ölkələr arasında çox fəal siyasi əlaqələrin genişləndiyini vurğulayaraq, Küveytə rəsmi səfərini məmnunluqla xatırlayıb. Prezident İlham Əliyev Azərbaycan-Küveyt qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib və bunun üçün yaxşı imkanların olduğunu deyib.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən səfir təyyarə qəzası nəticəsində həlak olanlarla bağlı bir daha Küveyt Əmirinin başsağlığını çatdıraraq, yaralananların tezliklə şəfa tapmasını arzulayıb.

# Təhlükəsizliyimiz də birdir, MARAQLARIMIZ DA



**Şuşa Bəyannaməsi ilə bir üst səviyyəyə qalxan Türkiyə-Azərbaycan strateji müttəfiqliyi hər kəsin hesablaşmaq məcburiyyətində qaldığı bir gücdür. Bu əlaqələr artıq tək Cənubi Qafqaz regionunu deyil, daha geniş coğrafiyanı əhatə etməyə başlayıb.**

AZAD ƏLİYEV

Türkiyə və Azərbaycan arasında strateji müttəfiqlik əlaqələri artıq tək Cənubi Qafqaz regionunu deyil, daha geniş coğrafiyanı əhatə etməyə başlayıb. Bu fakt özünü iki ölkə arasındakı təmaslarda da göstərir.

### "HƏR ZAMAN AZƏRBAYCANIN YANINDAYIQ"

Bir neçə gün əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azərbaycanlı həmkarı İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edəcəyini vurğulayıb. Türkiyə Prezidenti ölkəsinin Cənubi Qafqaz regionunda davamlı sülhün əldə edilməsinə tam dəstək göstərdiyini deyərək, hər zaman Azərbaycanın yanında olmağa davam edəcəyini bildirib.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin "Bir millət, iki dövlət" prinsipi ilə inkişaf etdiyini deyib, ölkələrimizin hər zaman bir-birinin yanında olduqlarını vurğulayıb.

Telefon söhbəti zamanı 2025-ci ildə iki qardaş ölkə arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Dövlət başçıları təmasların davam etdirilməsi məsələsini qeyd ediblər.



Hakan Fidan

### "AZƏRBAYCANIN SÜLH İSTİQAMƏTİNDƏKİ QƏRARLI ADDIMLARINI DƏSTƏKLƏYİRİK"

Rəsmi Ankaranın bütün məsələlərdə Bakıya tam dəstək verdiyini xarici işlər naziri Hakan Fidan bir daha bəyan edib. Yerli və beynəlxalq media nümayəndələri üçün keçirilən brifinq zamanı türkiyəli nazir bildirib ki, ölkəsi Azərbaycan Prezidenti İlham Əliyevin bölgədə sülh istiqamətindəki qərarlı addımlarını dəstəkləyir: "Sülh sazişi sənədinə imza atılması üçün yerdə qalan bir neçə bənd var ki, onların da tamamlanması lazımdır. Ümid edirik ki, 2025-ci ildə qalıcı sülhə nail olunacaq və firavan bir bölgə görəcəyik".

H.Fidan deyib ki, Azərbaycanın Qarabağdakı işğal prosesini başa çatdırması ilə bölgədə davamlı sülh üçün tarixi fürsət yaranıb. O, Türkiyənin sülh və sabitlik prosesində Azərbaycanla çiyin-çiyinə hərəkət etdiyini ifadə edib.

### "TÜRKİYƏNİN MÜTTƏFİQİ KİMİ HƏR ZAMAN YANINDAYIQ"

İki ölkə arasındakı münasibətlərin dünyaya nümunə olduğunu Prezident İlham Əliyev də yerli telekanallara son müsahibəsi zamanı bəyan edib. Dövlət başçısı Suriyada yaşanan son hadisələrə münasibət bildirərkən Bakı-Ankara münasibətlərinə də toxunub. Onun sözlərinə görə, Türkiyənin Suriyanın inkişafındakı rolu çox əhəmiyyətlidir: "Türkiyənin bütün digər sərhədlərində də terrorçuluğa yer olmamalıdır. Biz də Türkiyənin müttəfiqi kimi hər zaman istənilən formada onların yanındayıq və bunu Türkiyə tərəfi bilir. Necə ki, Türkiyə istənilən formada, hər bir məsələdə bizim yanımızdadır, biz də onun yanındayıq. Bizim Müttəfiqlik Bəyannaməmiz hər gün yeni amillərlə zənginləşir və D-8-lə bağlı bax, bayaq verdiyiniz suala qayıtdıqda, bizi ən çox dəstəkləyən də yenə Türkiyə olmuşdur və birinci bizi təbrik edən də Türkiyə olmuşdur. Ona görə Türkiyənin marağında nədirsə, bizim də marağımızda odur. Təhlükəsizliyimiz də birdir, maraqlarımız da birdir, gələcəyimiz də birdir və həm Yaxın Şərqdə, həm də eyni zamanda, Avropada, - bir qədər bu məsələyə biz toxunduq, - tamamilə yeni vəziyyət yaranır və burada güclü Türkiyə amili əsas rol oynayacaq.

Biz də onun yanındayıq. Yəni ki, gücümüz daha da artacaq. Böyük coğrafiya - Avropanı, Asiyanı, Cənubi Qafqazı, Xəzər hövzəsini əhatə edən böyük coğrafiya artıq özlüyündə bir ciddi geosiyasi amildir. Hərbi güc, siyasi güc, iqtisadi potensial, birlik və bu gün dünyanın heç bir yerində bu qədər bir-birinə bağlı olan ölkələri görmək mümkün deyil, necə ki, Türkiyə və Azərbaycan".

Dövlət başçılarının bəyanatlarından da göründüyü kimi, Şuşa Bəyannaməsi ilə bir üst səviyyəyə qalxan ikitərəfli münasibətlər, Türkiyə-Azərbaycan strateji müttəfiqliyi artıq beynəlxalq miqyasda cərəyan edən proseslərə təsir gücünə malik, hər kəsin hesablaşmaq məcburiyyətində qaldığı bir faktdır.

PREZİDENTDƏN ABŞ, FRANSA VƏ İRANLA MÜNASİBƏTLƏRİMİZƏ DAİR AÇIQLAMALAR

# AYDIN VƏ KONKRET KONTURLAR



Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində maraqlı açıqlamalar verib. O, Azərbaycanın xarici siyasəti, regional vəziyyətə dair mühüm məqamlara aydınlıq gətirib.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın xarici siyasəti, regional vəziyyət və ayrı-ayrı ölkələrlə bağlı ikitərəfli münasibətlərə dair bir çox mühüm məqamlara aydınlıq gətirib. Dövlət başçısının rəsmi Bakının ABŞ, Fransa və İranla qarşılıqlı münasibətlərə dair səsləndirdiyi fikirlər daha çox diqqət çəkir. Bu dövlətlərlə son illərdə yaşanan gərginliklər əslində heç kimə sirr deyil. Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsində yaşanan çətinliklərin əsas qaynaqlarının elə bu üç ölkədən yönləndirildiyini söyləyə bilərik. İstər Parislə Vaşinqtonun, istərsə də Tehranın Azərbaycanın tarixi qələbəsindən sonra sərgilədikləri mövqe dediklərimizi açıq şəkildə isbatlayır. Bununla belə, dövlət başçısının son müsahibəsində toxunduğu məqamlar bu ölkələrin Azərbaycanla münasibətdə, o cümlədən bütövlükdə Cənubi Qafqazda praqmatik siyasəti üçün yol xəritəsi də sayıla bilər.

## PARİS DİALOQ İSTƏYİR

Təbii ki, Azərbaycana qarşı aparılan anti-təbliğatın əsas mərkəzlərindən biri Makron Fransasıdır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur: “Bir çoxları və zənnimcə, hakim zümrənin rəhbərləri 2020-ci ildə bizim Qələbəmizi özlərinin məğlubiyyəti kimi qəbul etdilər. Hərçənd belə düşünmək üçün heç bir əsas yox idi. Amma nədənsə, bunu məhz belə şəxsi planda qəbul edirdilər”.

Lakin rəsmi Bakının milli maraqlara əsaslanan xarici siyasəti və qətiyyəti hətta Makron Fransasını da mövcud reallıqları qəbul etməyə vadar edir. Prezidentin müsahibəsindəki bir məqama diqqət edək: “Mən prinsipcə heç vaxt danışmadığımız bir məsələni də çatdırmaq istəyirəm, zənnimcə, bu, hər hansı şəkildə böhrandan çıxmağa kömək edəcək. Son bir neçə ay ərzində biz Fransa hökumətinin nümayəndələrindən təmaslar qurulması üçün siqnallar alırdıq, mənim yaddaşımda onların sayı üç və ya dörddür. Müxtəlif şəxslərdən bizim müxtəlif nümayəndələrə müraciətlər daxil olub və həmişə cavab verilib: “Biz hazırıq”. Bəli, biz elə bu gün hazırıq, amma heç yerə getməyəcəyik, nə Parisə, nə də Brüsselə. Bizimlə görüşmək lazımdırsa, burada, Bakıda mümkündür”. Azərbaycanın bu məsələdəki tələbləri dəyişməz olaraq qalır. Dövlət başçısının da vurğuladığı kimi, bizim işlərimizə qarışmasınlar, Cənubi Qafqazla bağlı məsələlərə müdaxilə etməsinlər. Göründüyü kimi, Azərbaycan nə qədər çətin durum olursa-olsun, dialoq qapısını hər zaman açıq saxlayır.

### İRAN RƏHBƏRLİYİ VERDİYİ SÖZLƏRİ TUTMUR

Azərbaycan Cənubi Qafqazdakı problemlərin məhz bölgə dövlətləri çərçivəsində həllini istəyir. Lakin rəsmi Bakının bu çağırışı bəzi ölkələr, xüsusilə də cənub qonşumuz İran tərəfindən bir çox hallarda sui-istifadə edilir. Tehranın ölkəmizə qarşı siyasi müstəvidə sərgilədiyi mövqe bəzən ciddi suallar doğurub. İndi Bakı Tehranla münasibətlərin normallaşdırılması ilə bağlı gözləmə mövqeyindədir desək, yanılmarıq: “Çünki hazırkı İran rəhbərliyi ilə bizim elə ciddi təmaslarımız olmayıb. Hökumət üzvləri arasında müəyyən təmaslar olub. Onlar daha çox iqtisadi və nəqliyyat məsələlərinə aid idi. O məsələlər, hansı ki, prinsipcə bizdə siyasi gündəlikdən ayrıdır və biz heç vaxt bunları qarışdırmamışıq”. Dövlət başçısı səfirliyimizdə terror aktı törədən şəxslə bağlı çıxarılan hökmün hələ də yerinə yetirilməməsi, son günlərdə əyalət mollasının hədyanları ilə bağlı faktları xatırladaraq bildirib ki, İran rəhbərliyi verdiyi sözləri tutmur.



## BAYDEN ADMİNİSTRASİYASININ AZƏRBAYCANLA BAĞLI ƏSAS SƏHVİ

Bütün dünyanın yanvarın 20-ni səbrsizliklə gözlədiyi bir vaxtda Azərbaycan Prezidentinin ABŞ-nin hazırkı administrasiyası zamanında və başlamasına sayılı günlər qalmış Donald Tramp dönəmində Bakı-Vaşinqton münasibətləri ilə bağlı söylədikləri də maraqlıdır. Onun sözlərinə görə, Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, ABŞ-Azərbaycan münasibətləri ABŞ-Ermənistan münasibətlərinin qurbanına çevirilib: “Bayden administrasiyasının səhvlərindən biri də o idi ki, Amerikaya olan inamı böyük dərəcədə sarsıtdı, özü öz əməlləri ilə. Məsələn, elə Əfqanıstan məsələsinə qayıtsaq, Azərbaycan birinci ölkələrdən idi ki, Əfqanıstandakı missiyaya qoşulmuşdu və həm hərbi kontingent göndərmişdi və dəfələrlə onu artırmışdı, həm də Amerika üçün çox vacib olan nəqliyyat-logistika məsələlərini də həll etmişdik. Biz onlara lazım olana qədər 907-ci düzəliş - sanksiya qaldırılırdı, biz ki, lazım olmadıq, tətbiq etdilər. Yəni, bu nədir? Bunun bir adı var: nankorluq”.

### TRAMPA ÜMİDLƏR BÖYÜKDÜR

Tramp dönəminə gəldikdə isə, Azərbaycan bu məsələdə nikbindir. Bu nikbinlik dövlət başçısının mövqeyində də açıq şəkildə hiss edilir və xüsusi olaraq vurğulanır. “Cənab Tramp tamamilə yeni gündəliklə hakimiyyətə gəlir və onun birinci dönəmində Amerika-Azərbaycan əlaqələrində hər hansı bir problem yaşanmadı. Əksinə, münasibətlər çox müsbət idi və bir çox istiqamətlər üzrə biz irəliləyişə nail ola bilmişdik”, - Prezident deyib. Onun sözlərinə görə, Tramp öz açıqlamaları ilə çox aydın, açıq mesajlar göndərir: “İndi bunların bəlkə də hamısını təhlil etmək mümkün deyil. Amma deyə bilərəm ki, onların böyük əksəriyyətini Azərbaycan ictimaiyyəti bölüşür. Yəni, ona görə ümidlər böyükdür. Ona görə mən dedim ki, ümidlər var, ümidlər böyükdür. O cümlədən Amerika-Azərbaycan strateji əlaqələrinə yaxınlaşmaq da mümkün olacaq. Mən hesab edirəm ki, əgər hər iki tərəf maraqlı olsa, biz Amerika-Azərbaycan əlaqələrini strateji səviyyəyə qaldıra bilərik”.

Göründüyü kimi, Azərbaycan bütün tərəflərlə bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan ikitərəfli münasibətlərin normallaşdırılmasına hazırdır. Lakin bu məsələdə ölkəmizin milli maraqları, mövcud reallıqlar nəzərə alınmalı, bölgəmizlə bağlı siyasətdə Bakının əsas aparıcı qüvvə olduğu unudulmamalıdır.

# BAKI MÖVQEYİNDƏ İSRARLIDIR

Prezident İlham Əliyev bir daha rəhbəri olduğu dövlətin beynəlxalq hüquq və prinsiplərə sadiqliyini göstərir. Təyyarənin "qara qutu"larının belə hallarda tətbiq edilən prosedurlara müvafiq olaraq istehsalçı ölkə - Braziliyada oxunması rəsmi Bakının siyasi iradəsinin nəticəsidir.



RÜSTƏM QARAXANLI



Yanvarın 6-da, yeni ilin ilk iş günündə Prezident İlham Əliyev Rusiya səmasındakı təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan bələdçilərlə görüşdü. Dövlət başçısının hərbi müdaxiləyə məruz qalma nəticəsində faciəvi şəkildə qəzaya uğrayan təyyarə barədə dekabrın 29-da verdiyi sərt bəyanatlardan cəmi bir həftə sonra Azərbaycanın haqlı tələblərini yenidən səsləndirməsinin, özü də bunu həlak olan ekipaj üzvlərinin ailələri ilə görüşdə etməsinin simvolik əhəmiyyəti var. Prezident İlham Əliyevin bu addımı dünyaya və konkret olaraq Rusiyaya rəsmi Bakının prinsipial mövqeyinin bir daha çatdırılması kimi qəbul edilməlidir. Başqa sözlə, Azərbaycan vətəndaşlarını ən ağır anlarda belə yalnız buraxmır, günahkarların cəzalandırılması tələbi isə heç bir müzakirə mövzusu ola bilməz.



**TƏSDİQLƏNMİŞ İLKİN MƏLUMATLAR VAR**

"Qroznı şəhərində "kavyor əməliyyatı", yəni, hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib. Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Adətən hər hansı bir ölkənin hava məkanında təhlükə yaranırsa, dərhal o ölkənin hava məkanı bağlanır. Bu, bütün ölkələrdə var və bunun müxtəlif adları var. Rusiyada buna "kavyor əməliyyatı" deyirlər. Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi. Dərhal hava məkanı bağlanmalıydı və təyyarə geri dönməli idi. Onu da bildirməliyəm ki, baş vermiş qəzadan təqribən 10 gün əvvəl oxşar hadisə Qroznı şəhərinin yaxınlığında baş vermişdi. AZAL-a məxsus təyyarə yarı yoldan geri dönmüşdü. Nə üçün bu dəfə təyyarə ekipajına xəbərdarlıq edilməmişdi? Bunu təbii olaraq istintaq göstərəcək. Mən bir daha demək istəyirəm ki, bizdə olan məlumat həqiqətə əsaslanır", - deyən Prezidentin sözlərinə görə, "Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur".

Dövlət başçısı hesab edir ki, qəza barədə məlumatların araşdırılmasının Braziliyada həyata keçirilməsində də əsas məqsəd dəqiq nəticələrin əldə edilməsidir: "Təbii ki, bu günə qədər hələ də açıq olmayan bütün məsələlər də üzə çıxacaq. Gün kimi aydın olan məsələlər ondan ibarətdir ki, təyyarə radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bizə bəlli olan digər məsələ ondan ibarətdir ki, təyyarə yerdən açılan atəş nəticəsində zədələnmişdir".

Prezidentin istintaqın gedişatının Azərbaycan tərəfinin mövqeyini təsdiqlədiyini bildirməsi ona dəlalət edir ki, rəsmi Bakıda artıq əminlik yaradan təfərrüatlar var.

## Azərbaycanın istəyi yalnız ədalətli nəticədir

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial yanaşması ibrətamizdir. Azərbaycan qarşı tərəfdə kimin olmasının fərqinə varmadan dünyaya dövlətin ekstremal hallarda öz xalqının müqəddəratını və milli mənafelərini necə qorumalı olduğunu əyani şəkildə nümayiş etdirir. Bu yanaşma Bakının hansı mərhələyədək Moskvaya qarşı irəli sürdüyü tələbələrin üzərində dayanacağına tərəddüd edənlər və şübhə toxumları səpməyə çalışanlar üçün tutarlı cavabdır. Digər tərəfdən, İlham Əliyev bir daha rəhbəri olduğu dövlətin beynəlxalq hüquq və prinsiplərə sadiqliyini göstərir. Təyyarənin "qara qutu"larının belə hallarda tətbiq edilən prosedurlara müvafiq olaraq istehsalçı ölkə - Braziliyada oxunması rəsmi Bakının siyasi iradəsinin nəticəsidir. Bu, Rusiyanın ciddi cəhdlərinə baxmayaraq, araşdırmanın şəffaflığını təmin etmək üçün atılmış qətiyyətli addımdır. Təyyarənin kənar təsir nəticəsində qəzaya uğraması artıq faktdır və rəsmi Bakının istəyi sadəcə bu cinayəti törətmiş şəxslərin məsuliyyətsizliyinə rəsmi qiymətin verilməsidir. Bu mövqeyi dövlət başçısı həlak olan ekipaj üzvləri ilə vida mərasimindən sonra verdiyi müsahibədə də bəyan edib və Rusiyanın Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən araşdırılma təklifindən imtinanı bu səbəblə əsaslandırıb: "Əgər qəza baş verəndən dərhal sonra biz Rusiya tərəfindən ədalətli və adekvat addımlar görsəydik, bəlkə də buna etiraz etməzdik. Amma biz gördük ki, burada məsələni ört-basdır etmək cəhdləri göz qabağındadır".



## Tələblər kifayət qədər konkretdir

Azərbaycanın Rusiyadan tələblərinin xüsusi anlamı və əhəmiyyəti var. Çünki Bakıda təyyarənin qəsdlə vurulması israrı səslənmir. Sadəcə, sərnişin laynerinin hərbi müdaxiləyə məruz qalması təsdiqlənərsə, cinayətə cavabdeh şəxslər cəzalarını almalıdırlar. Yəni cinayət törədilibsə və insanlar həlak olubsa, onu ört-basdır etmək niyyəti hansı məntiqə əsaslana bilər? Dövlət başçısının sözləri Azərbaycanın bu təəccübünün ifadəsidir: "Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək".

Hazırda "qara qutu"lar oxunub və nəticələr Qazaxıstana göndərilib. Hadisə qardaş ölkə ərazisində baş verdiyindən, nəticələrin elanı hüququ da Astanaya məxsusdur. Prezident İlham Əliyevin də dediyi kimi, faktı inkar etmək və gözdən pərdə asmaq cəhdləri cəfəngiyyat və ağılsızlıqdır.

# MAKRONA QARŞI narazılıq pik həddə

Makron Fransası çox ciddi sınaqlar qarşısındadır. Tez-tez təkəbbürlülükdə və özündən razılıqda günahlandırılan Fransa prezidenti ictimai narazılıqların əsas hədəfinə çevrilib.



AZƏR NURİYEV

Avropanın bir sıra ölkələrində siyasi böhranlar 2025-ci ildə də davam edir. Xüsusən də Fransa və Almaniya ilə bağlı bədbin proqnozlar irəli sürülür, Avropa İttifaqının (Aİ) gələcəyi şübhə altına alınır. “Daxili eroziya blokun təməlini içəridən sarsıdır - populizm dalğası Avropada “birlik və tərəqqi eksperimentini” məhv edə bilər”. Bu iddia ilə nüfuzlu “The Hill” qəzeti çıxış edib. Məqalədə qeyd edilib ki, xüsusilə Fransada vəziyyət gərginləşib. Emmanuel Makronun Fransasında mərkəzçi Fransua Bayrunun baş nazir təyin edilməsinə baxmayaraq, hakimiyyət hər iki cinahdan təhlükə altındadır. “Amansız ifrat sağçılar və qəzəbli ifrat solçular dövlətin praktiki idarə edilməsi ilə maraqlanmırlar. Onlar Makronun artıq kövrək gündəliyinə qarşı bir qoç kimi çıxış edirlər. Pensiya islahatları məqsədinə çatmayıb, büdcədə qarışıqlıq var və milləti kollektiv narahatlıq bürüyüb”, - deyə “The Hill” yazıb.



## FRANSANIN ÜZ QARASI - MAKRON

Əslində Fransanın problemləri Almaniya ilə müqayisədə daha kəskindir, üstəlik dərin şəxsi xarakter daşıyır. Tez-tez təkəbbürlülükdə və özündən razılıqda günahlandırılan Makron ictimai narazılığın hədəfinə çevrilib. O, 2017-ci ilin mayında hakimiyyətə gəldikdən sonra çoxsaylı mübahisələrin mərkəzində olub və kobud səhvlərə yol verib. Bu hadisələr onun barəsində “ünsiyyətdə yöndəmsiz olan prezident” imicini formalaşdırıb. Fransa prezidenti Yelisey sarayında səfirlərin ənənəvi konfransından sonra da tənqidlərə məruz qalıb. Onun Afrikada Fransanın hərbi mövcudluğu ilə bağlı söylədikləri birmənalı qarşılanmayıb. Makron deyib ki, Afrika ölkələri uzun illər Parisin göstərdiyi xidmətlərə, Afrika sahili (Sahel) ölkələrinə göstərdiyi “dəstəyə” görə Fransaya təşəkkür etməyi unudublar. Prezident çıxışında fransız hərbi qüvvələrinin bəzi Afrika ölkələrindən qovulmasını fransız hərbi strukturunun yenidən formalaşması kimi təqdim edib. Afrika ölkələrinin bununla bağlı cavabı gecikməyib. Çad və Seneqal Makronun şərhlərini pisləyiblər, Fransa prezidentinin Afrikaya və afrikalılara qarşı hörmətsiz münasibəti əks etdirən çıxışından sonra dərin narahatlıqlarını bildiriblər. Seneqalın baş naziri Usman Sonko Fransa əsgərlərinin ölkəsindən çıxarılmasının Paris və Dakar arasında danışıqların nəticəsi olması ilə bağlı fikirlərə etirazını ifadə edib. O, sosial şəbəkələrdə fransız əsgərlərinin ölkədən getməsinin guya Parisin təklifi olması, eləcə də Fransa ordusunun mövcudluğunun yenidən təşkili ilə əlaqədar iddianı tamamilə səhv adlandırıb.

Fransanın özündə də solçular Makronun nitqini kəskin tənqid edərək onu yersiz, avtoritar və təkəbbürlü adlandırıblar.




## “AVROPA İTTİFAQI BİZİ MƏHV EDİR”

Makron son çıxışında bir dəfə də olsun vətəndaşlarının Aİ-dən narazılığına toxunmayıb. Halbuki, Fransanın Aİ-dən çıxması üçün keçirilmiş nümayiş iştirakçıları ittifaqın bayrağını cırıblar. Mitinq Parisin mərkəzində, Rumıniya səfirliyinin yaxınlığında, Sen-Dominik küçəsində keçirilib. “Vətənpərvərlər”in lideri Florian Filippo mitinqdə çıxış edərkən bildirib ki, 2025-ci il Fransanın nəhayət Aİ və NATO-dan çıxacağı il olmalıdır, çünki bu təşkilatlarla onun yolu bir deyil. Onun fikrincə, Aİ-yə üzvlük ittifaqa daxil olan bütün ölkələr üçün zərərlidir. Siyasətçi bu çərçivədə Rumıniyanı nümunə gətirərək qeyd edib ki, burada müstəqil namizəd Kelin Corceskunun qələbəsinə baxmayaraq, Konstitusiya Məhkəməsi dekabrın 6-da prezident seçkilərinin nəticələrini ləğv edib. Filippo məhkəmənin qərarının Aİ-nin göstərişi ilə qəbul edildiyini iddia edib. “Bu gün Aİ üzv ölkələrdə prezident seçkilərinin nəticələrini Rusiyanın müdaxiləsi bəhanəsi ilə ləğv edir. Onların həmişə bir bəhanəsi var. Eyni zamanda, ABŞ və Aİ-nin başqa dövlətlərin işlərinə real müdaxiləsini heç kim görmür”, - deyə Filippo vurğulayıb. “Aİ bizi məhv edir, biz onun buraxılmasına nail olmalıyıq”, - siyasətçi bildirib.

### FRANSIZLARIN 60 FAİZİNDƏN ÇOXU ONU İSTƏMİR

Bütün bu faktlar Makronun sosial dayaqlarına da ciddi zərbə vurmaqdadır. Fransızların 60%-dən çoxu onun istefasını dəstəkləyir. Bunu Fransanın “Le Figaro” qəzetinin sifarişi ilə “Odoxa-Backbone” sosioloji xidmətinin keçirdiyi sorğunun nəticələri də sübut edir. Respondentlərin 61%-i hazırkı dövlət başçısının istefasını istəyib, yalnız 28%-i onun vəzifədə qalmasını dəstəkləyib. Bundan əlavə, respondentlərin 62%-i Makronun prezidentliyini avtoritar kimi xarakterizə edib. Fransızların əksəriyyəti Fransua Bayrunun ilin sonuna qədər Baş nazir postunu saxlaya bilməyəcəyinə inanır. Respondentlərin 86%-i əmindir ki, Fransa prezidenti 2025-ci ildə yeni Baş nazir təyin etməli olacaq. Qeyd edək ki, yanvarın 2-3-də keçirilən sorğuda 1005 nəfər iştirak edib.

Görünən odur ki, Makron Fransası çox ciddi sınaqlar qarşısındadır. Problemlər artıq pik həddə çatıb. Həm xarici siyasətdə, həm də daxildə.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# NƏQLİYYAT SEKTORUNDA CİDDİ DƏYİŞİKLİKLƏR

2025-ci ildə də nəqliyyat sektorunda islahatlar davam etdiriləcək. Əvvəlki işlərin davamı olaraq avtobus parkı yenilənəcək, yeni avtobus zolaqları salınacaq. Taksi dayanacaqlarının sayının artırılması da nəzərdə tutulur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ötən il nəqliyyat sektoru ciddi dəyişikliklərlə yadda qaldı. İctimai nəqliyyatla, taksilərlə bağlı xeyli nəzərəçarpacaq addımlar atıldı. Avtobus zolaqları çəkildi, velozolaqlar yaradıldı, taksilərlə bağlı yeniliklər oldu. Maraqlıdır, atılan addımlar öz məqsədinə çatıbmı? İlkin nəticələr nə deyir?

**"BÖYÜK LAYİHƏLƏR İCRA ETDİK"**

Yeri gəlmişkən, Prezident İlham Əliyev də yerli televiziya kanallarına müsahibəsində bu məsələyə toxunub. Dövlət başçısı qeyd edib ki, şəhər nəqliyyatını yüngülləşdirmək və tıxacları azaltmaq üçün bir çox böyük layihələr icra edilib: "Vaxtilə bir çox tunellər, yol qovşaqları inşa edildi. Amma indi biz görürük ki, yenə də nəqliyyat vasitələrinin sayı artır, insanlar daha çox maşın alır, iqtisadi fəallıq artır. Yenə də şəhər tıxaclarda boğulmağa başlamışdır. Ona görə mənim tərəfimdən, o cümlədən bu məsələ də tapşırıq kimi verildi və indi Baş plan faktiki olaraq hazırlanıb".

**10 METRO STANSİYASI İNŞA EDİLƏCƏK**

Prezident qeyd edib ki, onun göstərişi ilə yeni 10 metro stansiyası inşa ediləcək: "Burada avtobus nəqliyyatını metro nəqliyyatı ilə uzlaşdırmaq məsələləri dayanır. Biz son vaxtlar bir neçə metro stansiyasını istifadəyə verdik. Amma bu, kifayət deyil və mənim göstərişimlə yeni 10 metro stansiyası inşa ediləcək. Onların yerləri də seçildi və bu ildən başlayaraq artıq investisiyalar da qoyulacaq. Bununla bərabər, yeni yol infrastruktur layihələrini Bakı şəhərində icra etmək üçün artıq ilk 7-8 layihə seçildi. Beynəlxalq mütəxəssislər cəlb edildi. Biz hansı yollara üstünlük verməliyik. Bəzən yeni yol açılır, amma o, tıxacın azalmasına yox, artmasına gətirib çıxarır. Yəni, burada beynəlxalq təcrübə çox vacibdir və bu məsələ də mütləq öz həllini tapacaq".

**GÜNDƏ 900 MİNƏ YAXIN SƏRNİŞİN DAŞINIR**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) "Kaspi" qəzetinə verilən məlumata görə, Bakıda hərəkətliliyin transformasiyası çərçivəsində görülən işlərin məqsədi sakinlərin və şəhərin qonaqlarının rahatlığı və təhlükəsizliyini təmin etməkdir: "Yerüstü ictimai nəqliyyat sahəsində diqqət ilk növbədə avtobusların fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilib. Mühüm dəyişikliklərdən biri paytaxt küçələrində onlar üçün xüsusi zolaqların yaradılması oldu. Nəticədə avtobusların marşrut üzrə gediş vaxtı bəzi yerlərdə 10-12, bəzi yerlərdə 18-22 dəqiqəyə qədər azalıb, sərnişinlərin sayı isə əhəmiyyətli dərəcədə artıb. Hazırda ümumi uzunluğu 100 km-dən çox olan xüsusi zolaqlar paytaxtın 30-dan çox küçə və prospektini əhatə edir. Bu zolaqlarla hərəkət edən avtobuslar gündə 900 minə yaxın sərnişin daşıyır. Xüsusi zolaqların yaradılması prosesi davam edir".

AYNA-dan bildirilir ki, yeni marşrutların açılması da görülən işlərin mühüm tərkib hissəsidir: "Əsas məqamlardan biri sərnişinlərin ictimai nəqliyyata inamının artmasıdır. Bunu rəqəmlər də təsdiq edir: 2023-cü illə müqayisədə ötən il avtobuslarla 28 milyon daha çox sərnişin daşınıb".




**Fotolar:** Global Photostock

## AVTOBUS PARKI REKORD HƏDDƏ ÇATIB

Qurumun açıqlamasına görə, ictimai nəqliyyat sahəsində aparılan islahatların mühüm istiqamətlərindən biri də avtobus parkının əhəmiyyətli dərəcədə yenilənməsidir: "Məsələn, COP29 ərəfəsində ölkəmizə gətirilən 160 elektrikli avtobus artıq paytaxtda müxtəlif marşrutlarda uğurla istifadə edilir, özəl şirkətlər də bu yaxınlarda daha 85 ekoloji təmiz texnologiyalı avtobus alıb. Bundan əlavə, 200-dən çox avtobus təmir edilərək istifadəyə verilib. İndi onların parkı rekord həddə - 2170-ə çatıb".

**YENİ TAKSİ DAYANACAQLARI YARADILACAQ**

Tıxacların həlli məsələsinə gəldikdə isə, AYNA-dan qeyd edilib ki, köhnə taksilər, sürücülərin qeyri-adekvat davranışından irəli gələn qəzalar və təhlükəli vəziyyət, sürücü mədəniyyətinin və xidmət keyfiyyətinin aşağı səviyyədə olması ilə bağlı həddindən çox şikayət daxil olurdu. İslahatlar sayəsində bu sahədə də qayda-qanun yaradılıb: "Səmərəli tənzimləmə tədbirləri sayəsində xidmətlərin keyfiyyəti xeyli yaxşılaşıb, sınıq-salxaq avtomobillər yoxa çıxıb, əksinə, taksi parkı, xüsusən də hibrid və elektrik avtomobilləri hesabına köklü şəkildə yenilənib. Taksi xidmətlərinin göstərilməsi üçün yalnız yaşı 8 ildən çox olmayan avtomobillər qeydiyyata alınır. Sürücülər isə 2023-cü ildən etibarən AYNA tərəfindən təşkil olunan təlimlərdən keçirlər. Təlimləri bitirən sürücülərin sayı 33 min nəfəri keçib. Şəhərin müəyyən yerlərində taksi dayanacaqlarının yaradılması üzərində də iş gedir".

**ÖDƏNİŞSİZ YERLƏRİN YARADILMASI PROSESİ DAVAM ETDİRİLƏCƏK**

Şəhərdə narazılıqla qarşılanan məsələlərdən biri də parklanmadır. Qurumdan bildirilir ki, bu sahədə də mühüm dəyişikliklər baş verir: "Bakının ərazisi ümumən 5 zonaya - mərkəzi və əlavə olaraq 4 zonaya bölünüb. Mərkəzi və 3 zonanın müvafiq tariflərinə uyğun ödəniş rahat mobil proqram və ya SMS vasitəsilə həyata keçirilir. Yəni nağd pula və ya hər hansı qanunsuz fəaliyyət göstərən nəzarətçi ilə təmasa ehtiyac yoxdur - hər şey şəffafdır. Şəhərin bəzi ərazilərində pulsuz parklanma yerləri mövcuddur, məsələn, 4-cü zonaya aid məntəqələrdə. Ümumiyyətlə, yeni parklanma məntəqələrinin, o cümlədən ödənişsiz yerlərin yaradılması prosesi davam etdiriləcək".

**GÖRÜLƏN İŞLƏR ŞƏHƏR MOBİLLİYİ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏDİR**

Nəqliyyat eksperti Eldəniz Cəfərov deyir ki, 2025-ci ildə nəqliyyatın şaxələndirilməsi istiqamətində görülən işlər davam etdiriləcək: "Bu proseslər şəhər mobilliyi layihəsi çərçivəsində həyata keçirilir. Ekoloji cəhətdən təmiz nəqliyyat vasitələri, avtobuslar ictimai nəqliyyatda artıq fəaliyyətə başlayıb. Onların Zığda parkı da yaradılıb".



Eldəniz Cəfərov

# “İNSAN ÖMÜR BOYU ÖYRƏNMƏLİDİR”



## Rövşən Məmmədov: “Jurnalistikaya daxil olanda ağlamışam. Çünki hüquqşünas olmaq istəyirdim. Amma bu gün öz sənətimin deyərdim ki, pik nöqtəsindəyəm”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

“Məktəbdə...” layihəsinin növbəti görüşü paytaxtdakı 49 nömrəli “İntellekt” məktəb-liseyində keçirildi. Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan və informasiya dəstəyi “Kaspi” qəzeti olan layihənin qonağı “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin (AzTV) sədri Rövşən Məmmədov oldu.

### “BİR ANLIQ ÖZÜMÜ MƏKTƏBLİ KİMİ HİSS EDİRƏM”

“Sizin əhatənizdə bir anlıq özümü məktəbli kimi hiss edirəm. Bu, mənim üçün şərəfdir”, - deyə Rövşən Məmmədov orta təhsilini Sumqayıtda aldığını söylədi: “Sonra universitetin jurnalistika fakültəsinə daxil olmuşam. Jurnalistikaya daxil olanda ağlamışam. Çünki hüquqşünas olmaq istəyirdim. Amma bu gün öz sənətimin deyərdim ki, pik nöqtəsindəyəm. Bir sənətkar balası sıravi jurnalistikadan Azərbaycan Dövlət Televiziyasının sədri vəzifəsinə qədər yüksəldi. Mən hazırda Dövlət İdarəçilik Akademiyasında müəllim kimi də çalışıram. Hər dərs mənə nə isə öyrədir. İnsan ömür boyu öyrənməlidir. Həyatda uğur qazanmaq üçün nəzəri biliklərlə yanaşı, praktik bacarıqlara da yiyələnmək zəruridir. Mənim üçün praktika həmişə önəmlidir. 46 yaşım var. Atam sənətkar olub. Sizin yaşınızda olanda onunla çalışmışam. İlk maaşımı da atam verib. Uşaqlıqdan əməyi sevmişəm”. Qonaq hekayəsinə davam etdi: “Bir insan öz arzusunun pik nöqtəsinə necə çata bilər? Həyatda layiqli vətəndaş olmaq, maddi və mənəvi baxımdan kamilliyə çatmaq üçün hansı addımları atmaq lazımdır suallarına cavab verə bilməlisiniz. Bunun üçün bir neçə mərhələ var. İlk növbədə siz kimsiniz, bacarığınız, qabiliyyətiniz hara qədərdir, hansı dilləri bilirsiniz, hansı kitabları oxumusunuz, bunları müəyyənləşdirməlisiniz. Növbəti mərhələdə fiziki, psixoloji, mənəvi, əqli, intellektual hazırlığınıza diqqət yetirməlisiniz. Fiziki hazırlıq çox önəmlidir. Çünki sizi həyatda tək xoş sözlər gözləmir. Sizi “həyat” adlı müəllim də gözləyir. O, çox qəddardır. Onunla görüşə hazırsınızmı? O, sizin məktəb müəllimlərinizdən fərqlənir. Sizi döyür, danlayır, sınağa çəkir, sonra öyrədir. Həyatda hər şey şirin olmur”.

### “KİM ZƏRƏRLİ VƏRDİŞLƏRİN ALUDƏÇİSİDİRSƏ...”

R.Məmmədov qeyd etdi ki, güclü xarakterin formalaşmasında mənəvi-psixoloji amillərin rolu önəmlidir: “Kim zərərli vərdişlərin aludəçisidirsə, fiziki baxımdan zəifdir. İdman sizə təkcə güc deyil, həm də mübarizlik xarakteri verir. Həyat döyüşməyi, mübarizləri sevir”. AzTV sədri psixoloji hazırlığın vacibliyini belə izah etdi: “Sizə “bu yolu gedə bilməyəcəksən”, “bu uğuru əldə edə bilməyəcəksən”, səndə alınmayacaq” deyə mane olanlara əhəmiyyət verməyin. Öz yolunuzu gedin. Həyat uğur qazananlarındır. Uğur qazananları isə çox adam sevmir. Çünki bəyənməyənlərin o bacarıqları yoxdur. Məqsəd sağlamdırsa, hədəfinizə çatacaqsınız”.

> “46 yaşım var. Atam sənətkar olub. Sizin yaşınızda olanda onunla çalışmışam. İlk maaşımı da atam verib. Uşaqlıqdan əməyi sevmişəm.”

### “AKADEMİKLƏR VAR Kİ, EFİRDƏ FİKİRLƏRİNİ İFADƏ EDƏ BİLMİRLƏR”

AzTV sədri bildirdi ki, həyatda uğur qazanmağın vacib şərtlərindən biri də öz Ana dilini səlis bilmək, fikirlərini düzgün ifadə etməkdir: “Əgər Azərbaycan dilini səlis bilirsinizsə, fikirlərinizi dəqiq ifadə etməkdə çətinlik çəkmirsinizsə, uğur qazanmaqda çətinlik çəkməyəcəksiniz. Bunu mütaliə etməklə əldə etmək olar. Başqa dilləri - ingilis, alman, italyan, rus dillərini bilmək öz yerində, amma ilk növbədə Ana dilinizi bilməlisiniz. Mən rus və ingilis dillərində kitablar oxuyuram ki, bu dilləri daha yaxşı öyrənim, amma ilk növbədə öz ana dilimdir. Akademiklər var ki, efirə dəvət edəndə öz fikirlərini ifadə edə bilmirlər. Çünki nitqləri üzərində işləməyiblər”. R.Məmmədov “nitqinizi formalaşdırmaq üçün daim öz üzərinizdə işləyin. Əvvəlcə çətin olacaq, amma sonra istədiyinizə nail olacaqsınız”, - deyə məktəblilərə nitqlərinin formalaşması ilə bağlı praktika da keçdi: “Kral danışır” bioqrafik filmini izləyin. O filmdə bir fikir var: “Asta danışıq sürətli danışıqdan daha inamlıdır”. Fikirlərinizi ifadə edəndə heç vaxt tələsməyin”.



Foto: Arif Quluzadə - Global Photostock

### TELEVİZİYA SOSİAL ŞƏBƏKƏLƏRƏ UDUZUR

R.Məmmədov efirlərdə yayımlanan bayağı verilişlər, qeyri-peşəkar aparıcılarla bağlı mövzulara da toxundu: “Biz istəyirik ki, insanlar AzTV-yə baxsınlar. Burada 2000-ə yaxın insan çalışır. Biz həm də dövlətin verdiyi vəsaitdən əlavə də pul qazanmaq istəyirik. Hazırda auditoriyanın çoxu sosial şəbəkələrdədir. Bu gün televiziyanın sosial şəbəkə adlı bir rəqibi var. Bu problem təkcə Azərbaycanda deyil. Biz sosial şəbəkələrə uduzuruq. Çünki o platformalarda çərçivə yoxdur. Bizdə isə çərçivələr mövcuddur. Bizim konkret ideologiyamız var. Biz döyüşürük. Biz Azərbaycan dilinin saflığını qoruyuruq. Düzdür, bayağı müğənnilər və verilişlər bəzi efirləri başına alıb. O telekanallara reytinq lazımdır. Özəl telekanalların işinə müdaxilə edəndə “bəs biz necə dolanaq”, “400-500 işçinin əmək haqqını necə verək” deyirlər. Ona görə də bayağı verilişlər meydana çıxır. Azərbaycanda Audiovizual Şura fəaliyyət göstərir və telekanalların yayımına nəzarət var. Bu nəzarət olmasa, daha betər olar...” R.Məmmədov efirlərin qeyri-peşəkar aparıcı probleminə də münasibət bildirərək bütün sahələrdə qeyri-peşəkarların olduğunu dedi: “Eləcə də jurnalistikada qeyri-peşəkarlıq baxımından çox səbəb axtarmaq olar. Burada məktəbin, müəllimin, valideynin səhvləri var. AzTV-nin Teleradio Akademiyasında gənclərə altı ay pulsuz dərs keçilir. İmtahan edib yoxladıqdan sonra onlardan işə götürdüklərimiz olur. Biz yaxşı jurnalist axtarışındayıq”.

R.Məmmədov insanların sosial şəbəkələrə marağına da toxundu: “Bu günlərdə bir neçə TikToker tutuldu. İnsanlar onların paylaşımlarını daha çox “layk” edir, onlara daha çox baxırlar. Bu platformalar ucuz şoulara, təhqirlərə, bayağı mövzulara meyl edir. Ancaq siz də bilin ki, ciddi kontent telekanallarda, kitablardadır. Ona görə daha çox mütaliə edin, biliklərə yiyələnin”.



“YOL ƏHVALATI”NIN FƏRİDİ, REJİSSOR YUSİF ƏLİZADƏ “KASPİ”YƏ MÜSAHİBƏSİNDƏ SƏNƏTLƏ BAĞLI XATİRƏLƏRİNİ VƏRƏQLƏYİR

# “MƏNƏ ARTIQ HEÇ KİM “GƏL, KİNO ÇƏK” DEMİR”



Fotolar: Rüfət Mikayılov - Global Photostock

SÖHBƏTLƏŞDİ
Tərana Məhərrəmova
taranamaharramova@kaspi.az

**Yusif Əlizadə:** “Hər şeyin başlanğıcı da, qurtaracağı da olur. Kinostudiyaya yolum da düşmür. Heç çağıran da yoxdur, amma çağırsalar gedərəm...”

Azərbaycanfilm”in istehsal etdiyi filmlərin əksəriyyətində onun əməyi var. “Arxadan vurulan zərbə”, “De ki, məni sevirsən!”, “Dantenin yubileyi”, “Bizi bağışlayın” “İstintaq”, “Yarımçıq qalmış mahnı”, “Yol əhvalatı”, “Qorxma, mən səninləyəm”, “Musiqi müəllimi”, “Avqust gələndə”, “Qara gölün cəngavərləri”, “Bircəciyim”, “Həm ziyarət, həm ticarət”, “Özgə vaxt”, “Otel otağı”, “Yalan” və s. filmlərdə rejissor assistenti, II rejissor və aktyor kimi iştirak edib. Amma Yusif Əlizadə tamaşaçıların yaddaşında daha çox bir rolla qalıb...



## BİR NEÇƏ FİLMƏ ÇƏKİLMƏLİ OLDUM...

● **Yusif müəllim, sizi oxuculara necə təqdim edək: daha çox rejissor, yoxsa aktyor kimi?**

● Mən bütün ömrüm boyu kinostudiyada rejissor, rejissor assistenti, ikinci rejissor işləmişəm. Rejissor köməkçisindən başlayıb quruluşçu rejissor işinə qədər gəlmişəm. Əfsuslar olsun ki, quruluşçu rejissor kimi az - 2-3 qısametrajlı film çəkdim. Mən həm də yazıçıyam. 6-7 kitabım çap olunub. O kitablardan ikisi Qarabağ müharibəsinə həsr olunub. SSRİ dağılandan sonra öz əsərim əsasında “Qatarda son döyüş” adlı filmin ssenarisini hazırladım. Onda kinorejissor Oqtay Mirqasımov Dövlət Kinematoqrafiya İdarəsinin sədri idi. O, ssenarini təsdiqlədi. Amma SSRİ dağılanda kinostudiyaya büdcədən pul ayrılmadı, iş də olmadı, ssenari də qaldı. Ssenari Birinci Qarabağ müharibəsinə həsr olunan sənədli roman əsasında idi. Müdafiə nazirinin qəbuluna gedib döyüş səhnələri üçün texnikanın verilməsinə də razılıq almışdım. Əsər çox bəyənilmişdi. Təəssüf ki, həmin ssenari əsasında film çəkilmədi, qoymadılar...

Aktyor kimi filmlərdə isə təsadüfən çəkilmişəm. Rejissor sənətinə o qədər alışmışdım, heç çəkilmək də istəməzdim, amma bir neçə filmə çəkilməli oldum.

> *“İndi pul bölməyə meyl çoxdur, nəinki yaradıcılığa. İndi adam aktyorların oyununa da baxmaq istəmir. Yaxşı kino biz çəkən vaxtlarda idi...”*

## “SƏNİ GÖSTƏRİRDİLƏR...”

● **Dünya kinosunda da belə məqamlar çoxdur: aktyor bir neçə filmdə çəkilir, amma daha çox bir rolla tanınır və yadda qalır. Məsələn, “Yol əhvalatı”nın Fəridi kimi...**

● Mən bu filmdə çəkilməklə yanaşı, həm də filmdə rejissor assistenti idim. Fəridi oynamaq üçün müğənni Elxan Əhədzadə dəvət olunmuşdu. O, çəkilməli idi, paltarlarını da əvvəlcədən hazırlamışdıq. Ancaq Elxan həmin gün çəkilişə gəlmədi. Yoldaşına zəng vuranda dedi ki, o, Rəşid Behbudovun ansamblı ilə qastrola gedib. Səfər qəfil baş tutduğu üçün bunu demək imkanı da olmayıb. Buna görə də ikinci rejissor Rafiq Dadaşov dedi ki, Elxan yoxdursa, Yusif Əlizadəni çəkək. Rejissor Teymur Bəkirzadə də gülə-gülə dedi ki, dəvət etdiyi aktyor, dostu gəlmədiyinə görə sən Yusifi cərimələyirsən. Mənim də imtina etmək şansım olmadı. Çünki başqa aktyorlar da gəlmişdi, çəkiliş mütləq olmalı idi. Fotosınaq səhnələrində Səyavuş Aslan gəlib qapıdan boylanırdı: “Bunu çəkin, bunu...” deyirdi. Rolum çox yaxşı alındı, rejissor razı qaldı.

İndi hamının baxıb güldüyü film əslində böyük zəhmət və əziyyət hesabına başa gəlib. Rejissor Teymur Bəkirzadənin istəyi ilə Mustafa roluna ”İlk baxışdan məhəbbət” filmində baş rolu oynayan Vaxtanq Pançiludzeni Gürcüstandan dəvət etmişdik. Vaxtanqı şəxsən özüm Gürcüstana gedərək yuxudan oyadıb filmə dəvət etmişəm. Qatara minib Gürcüstana yollandım. Səhər qatardan düşüb yeməyə nəsə almaq istəyirdim, bir də gördüm diplomatımı bir nəfər götürüb gedir. İçində konyak və şokolad vardı. Arxadan çatıb diplomatımı geri aldım. O adamı da yolun kənarında dayanan qara “Volqa” maşını gözləyirdi. Orada oğrular çox idi. Vaxtanqın evi xarabalıqların arasında idi. Evini tapıb onu yuxudan oyatdım, “səni gözləyirik” dedim. Vaxtanqın boyu Zümrüd roluna çəkilən Həmidə Ömərovadan qısa idi. Çəkiliş zamanı bəzi yerlərdə onun ayağının altına daş qoyurduq ki, fərqi bilinməsin. Arada onunla mübahisəm də düşdü.

Qəbiristanlıq çəkilişləri İkinci Fəxri Xiyaban tərəfdəki məzarlıqda baş tutdu. İyulun axırı, avqustun əvvəlləri idi, dəhşətli istilər vardı. İşləmək çox çətin idi. Biz qəbiristanlıq işçilərinin emalatxanasının içərisində 60 dərəcə istidə işləyirdik. Bizim laboratoriya təmirdə olduğundan çəkilən lentləri Ukraynaya göndərirdik. Teleqram gəldi ki, çəkməyin, plyonka “brak”dır. Bizim ikinci operator əslən erməni olan Robert Silanyan idi. Sən demə, o bizə ”brak” plyonka gətiribmiş. Onun hərəkəti ucbatından film demək olar ki, iki dəfəyə çəkildi.

## DOĞULAN UŞAQLARA FƏRİD ADINI QOYURDULAR

● **Film 1981-ci ildə ekranlara çıxıb. Sizcə, bu günə qədər ekranlardan düşməməsinin sirri rejissor işi ilə bağlıdır, yoxsa aktyor oyunu ilə?**

● Kino ilk növbədə stol arxasında alınır. Dramaturq ssenarini yazanda alınmasa, demək heç nə alınayacaq. Ssenarini Asim Cəlilov rus dilində yazmışdı. Rejissor Teymur Bəkirzadə əsasən dokumentalist idi. Ancaq bu filmə qədər “Çətirimiz buludlardır” filmini çəkmişdi. Teymur aktyorlarla dost kimi işləyirdi. Ümumiyyətlə, filmdə ansambl yaxşı idi. Görün bu filmdə necə aktyorlar çəkilib... Siyavuş Aslan, Hacı İsmayılov, Yaşar Nuri üçlüyünün, Eldəniz Zeynalovun, eyni zamanda Paşa rolunun ifaçısı Kamil Məhərrəmovun filmin maraqlı alınmasında böyük rolu oldu. Teymur Bəkirzadənin bircə mimikası onlara bəs edirdi ki, rejissorun nə demək istədiyini tutsunlar. Buna görə də film çox uğurlu alınıb. Film az qala hər həftə telekanallarda təkrar-təkrar göstərilir. Qonşular məni görəndə “səni göstərirdilər” deyirlər. “Yol əhvalatı” ekranlara çıxandan sonra yeni doğulan uşaqlara Fərid adını qoyurdular. Bundan gözəl nə ola bilər?

## “SƏN BÖYÜK ADAM İMİŞSƏN...”

● **Bəs filmin taleyi rejissor assistentindən nə qədər asılıdır? Bəzən deyirlər ki, ikinci rejissorun işi quruluşçu rejissordan daha ağırdır...**

● Rejissor ümumi çəkiliş qrupuna cavabdehdir. Filmin necə hazırlanmasının sxemini o əvvəlcə beynində qurur, sonra çəkir. Hər bir rejissorun öz xarakterinə uyğun komandası olur. Başqa sahələrdə bu, olmaya bilər, amma bu sahədə belədir. Rejissorun ətrafında onu başa düşən adamlar olmalıdır. Mən rejissor Arif Babayevlə də işləmişəm. Bir gün ikinci rejissor Əşrəf Mamayev dedi ki, Yusif, sən demə, sən böyük adam imişsən. Arif Babayev deyir ki, mən kinostudiyada Yusifdən başqa heç bir assistent tanımıram. Dedim ki, hazırda əlimdə işim var, bir ay çəkər. Onda “Arxadan vurulan zərbə” filmini çəkirdik. Əşrəf “gözləyərik” dedi. Mən taleyimdən razıyam. İşlədiyim rejissorlar və aktyor ansamblı ilə səmimi və dost mühitində işləmişik. Bir-birimizdən öyrənmişik, bir-birimizə kömək etmişik.

## “BU EPİZOD HEÇ VAXT YADIMDAN ÇIXMAZ”

● **Siz Adil İsgəndərovun kino kursunu bitirmisiniz. Yəqin bu kurs həyatınızda mühüm rol oynayıb...**

● Kinostudiyada Ədil müəllimin “Kinoaktyorların teatr studiyası” adlı 3 illik kursu vardı. Orada Kamil Rüstəmbəyov, Əbdül Mahmudov, Elxan Qasımov dərs deyirdilər. Mən Lampa zavodunda işləyirdim. Axşamlar həmin kursa gəlirdim. Müəllimim rejissor Kamil Rüstəmbəyov idi. Adil müəllim imtahanlarda gəlib oturur, hansısa əsərləri səhnələşdirəndə baxırdı. Onun kinostudiyanın inkişafında rolu böyük olub. O vaxt demək olar ki, kinostudiyanın intibah dövrü idi. Kinomuzun ən yaxşı filmləri o dövrdə çəkilirdi. Kinostudiyanın divarları da, döşəməsi də parıldayırdı, indi onlardan əsər-əlamət yoxdur. Amma Adil müəllim haqqında “yuxarılara” yazırdılar. Onu işdən çıxaranda ətrafındakı yaradıcı insanları da ixtisara saldılar. Mən də ixtisara düşdüm. Adil müəllim işdən çıxmamışdan əvvəl onun kabinetinə getdim. “Mən heç nə edə bimərəm”- dedi: “Görürsən, mənim başıma nə oyun gətirdilər. Teatrda o qədər işlər gördüm, burada nələr elədim, amma indi məndən yazırlar”, -deyə gözləri doldu. Çox gənc idim, amma o, bu şeyləri mənə danışdı. Bu epizod heç vaxt yadımdan çıxmaz...

● **Daha hansı rejissorlarla işlədiniz?**

● Ənvər Əblucla “Qara gölün cəngavərləri” filmində işlədim. O filmi çəkərkən Dövlət arxivindən çıxmır, klişelər gətirirdim. Aktyorları neftin içinə salırdım, onların bir gününə iki günün pulunu yazırdım. Belə əziyyətli səhnələrə görə filmə qiymət verilir. Sonuncu işim Ənvər Əblucla İranla birgə çəkdiyimiz “Tərsinə çevrilmiş dünya” filmi oldu. Bu, İranla ilk birgə layihə idi. Onların şərtinə görə baş rola iranlı aktyor Məhəmmədrza Forutənı çəkdik.

● **İşlədiyiniz görkəmli aktyorlar və rejissorlardan sonra kinoda dərin boşluq yarandı...**

● İndinin özündə də boşluqdur... O başqa məktəb idi. Biz “Stanislaviskinin nəzəriyyəsi”ni keçərdik. O vaxt o nəzəriyyənin aşiqləri çox idi. Bizim məktəb də belə idi. İndi pul bölməyə meyl çoxdur, nəinki yaradıcılığa. Yaxşı kino üçün əsas ssenari lazımdır. Bu olmasa, kino alınmayacaq. İndi adam aktyorların oyununa da baxmaq istəmir. Yaxşı kino biz çəkən vaxtlarda idi...




● **O zaman hər yerdə, o cümlədən Bakıda kino mühiti vardı. İndi mühit bir yana, zaman, dövr dəyişib. Bəlkə kino dövrü deyil artıq...**

● “Moskva göz yaşlarına inanmır” filminə baxmısınız yəqin. Teleoperator Yuri Vasilyevin belə bir fikri var: “Vaxt gələcək, heç nə olmayacaq, nə kino, nə teatr, ancaq televiziya olacaq”. Bəlkə də elədir. Dövr dəyişib, televiziya ilə çəkiliş tez başa gəlir. Plyonka sistemi başqa idi. Televiziya bütün bu prosesləri üstələdi. Kino elə şeydir ki, bir filmi bitirirsən, başqasına keçirsən. Bu ansambl ayrılır, başqa qrup ora girə bilmir, sanki başqaları yad adamdır. Kinonun əsas maraqlı cəhəti ondadır ki, yaradıcı heyət bütün sahələrlə təmasdadır. Teatrdan tutmuş, zavod-fabrikə qədər... Bizim işlədiyimiz o boyda kino ordusu keçmişdə qaldı, öz adamları ilə birlikdə, mən də o cümlədən...

## “ÇAĞIRSALAR GEDƏRƏM...”

● **Kinodan sonra yazıçılığa necə başladınız?** Yox, 70-ci illərdən başlamışdım... Onda yazırdım, kənara qoyurdum, çap elətdirmirdim. Təqaüdə çıxandan sonra yazdıqlarıma əl gəzdirməyə başladım, onlara yeni fikirlə baxdım. Elə bir dövr oldu ki, beynim çox qarışmışdı. Yaxşı ki, qurtuldum... Əsas odur ki, kitablarımı oxuyurlar.

● **Yeni bir film çəkmək istəyirsiniz?**

● Nə bilim... Versələr köməkləşib çəkərik. Kimsə kitabım əsasında çəkmək istəsə, özüm də kömək edərəm. Amma deyən yoxdur...

● **İndi sizə “gəlin, kino çəkin” demirlər. Bəlkə artıq sizi yeni nəsil əvəzləyib, ona görə...**

● Hər şeyin başlanğıcı da, qurtaracağı da olur. Bəlkə orada elə adamlar var ki, bir-birlərinə alışıblar və bir-birlərinin işini bəyənirlər. Mənə artıq heç kim “gəl, kino çək” demir. Kinostudiyaya yolum da düşmür. Heç çağıran da yoxdur, amma çağırsalar gedərəm...

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






## SOCAR "Yaşıl istiqraz"ların buraxılışına başlayır

Yanvarın 15-dən Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) "Yaşıl istiqraz"ların buraxılışına start verəcək. "Report" şirkətə istinadən xəbər verir ki, emissiyanın ümumi məbləği 200 milyon ABŞ dollarıdır. Söhbət hər birinin nominal dəyəri 1 000 ABŞ dolları olan 200 min ədəd istiqrazdan gedir. Qiymətli kağızlar 5 il tədavüldə olacaq. Onların illik gəlirliliyi 6%-dir. Faizlər rüblük ödəniləcək. Prosesin anderrayteri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-dir. "Yaşıl istiqraz"ları əldə etmək üçün son tarix 2025-ci ilin fevralın 28-dir.

"İstiqrazların "yaşıl" adlandırılması təsadüfi deyil. Belə ki, əldə olunan vəsait "SOCAR Green" MMC-nin bərpa olunan layihələrinə və investisiyalarına sərf ediləcək. Məlum olduğu üzrə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP29 tədbirinə ev sahibliyi edən ölkəmiz üçün "yaşıl enerji"nin inkişafı və təşviqi məsələləri prioritet əhəmiyyət daşıyır. Bu xüsusda, "Yaşıl Gəlir, Yaşıl Gələcək" şüarı altında buraxılan istiqrazlar vətəndaşlara etibarlı və stabil gəlir qazandırmaqla yanaşı, Azərbaycanın "yaşıl enerji" sahəsindəki təşəbbüslərini də dəstəkləmək məqsədi daşıyır. SOCAR bu emissiya vasitəsilə ekoloji cəhətdən təmiz enerji mənbələrinin inkişafına töhfə vermək və sürətləndirmək niyyətindədir", - deyə məlumatda qeyd olunub.

"Yaşıl istiqraz"ları 1 və 5 saylı "ASAN xidmət" mərkəzlərindəki SOCAR İstiqrazları köşklərindən, o cümlədən ölkəmizdə qeydiyyatdan keçmiş investisiya şirkətlərindən əldə etmək mümkündür.

Ətraflı məlumat üçün *1999 çağrı mərkəzi və socaristiqraz.az, socarcapital.az veb-saytlarına müraciət oluna bilər.

Xatırladaq ki, SOCAR daxili kapital bazarları üçün ilk istiqraz buraxılışını 2016-cı, ikincini isə 2021-ci ildə həyata keçirib.

SOCAR İstiqrazları tədavülə buraxılandan bu günə qədər ən çox ticarət olunan korporativ qiymətli kağızdır.

# ABŞ-Nİ ACİZ QOYAN YANĞINLAR



ABŞ öz tarixinin ən dəhşətli meşə yanğınlarından biri ilə üz-üzədir. Yanğının vurduğu zərər rekord həddədir. Dəyən iqtisadi zərər təxminən 135-150 milyard dollar təşkil edə bilər.



F.ABASOĞLU

ABŞ ölkə ərazisində tüğyan edən yanğınların əlində aciz qalıb. Bu vaxta qədər qeydə alınan ən böyük meşə yanğınları kimi dəyərləndirilən fəlakətin miqyası isə dəhşətvericidir. Kaliforniya ştatında, Los-Anceles ətrafında onminlərlə mülk, minlərlə hektar ərazi tamamilə külə dönüb.

### LOS ANCELESDƏKİ BAŞ KONSULLUĞUMUZ EVAKUASİYA EDİLİB

Kaliforniyada davam edən yanğınlar səbəbilə Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğu Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində işlər həyata keçirir. Bu barədə "Report"un sorğusuna cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə məlumat verib. O qeyd edib ki, yanvarın 7-dən Los Anceles şəhərinin qərbində başlamış yanğınlarla əlaqədar, Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğuna məxsus sosial media hesablarında xəbərdarlıq elanı və təcili əlaqə nömrəsi yerləşdirilib: "Həmçinin vətəndaşların yanğınlarla bağlı məlumat əldə etmələri və təhlükəsizlik təlimatı ilə tanış olmaları üçün müvafiq internet səhifəsinə keçid linki paylaşılıb".

Yanğınlar səbəbindən Azərbaycanın Los Ancelesdəki Baş konsulluğunun yerləşdiyi bina da müvəqqəti olaraq evakuasiya edilib.

### SAKİNLƏRƏ SƏHVƏN TƏXLİYƏ BİLDİRİŞLƏRİ GÖNDƏRİLİB

ABŞ federal hökumətinin, ştat rəhbərliyinin səriştəsiz idarəçiliyi isə yanğının miqyasının böyüməsinin, dəyən ziyanın miqdarının artmasının əsas səbəblərindən biri kimi göstərilir.

Belə ki, Kaliforniyada davam edən yanğınlar fonunda Los Anceles dairəsinin sakinlərinə səhvən təxliyə bildirişləri göndərilib. Bu barədə dairənin fövqəladə hallar idarəsinin direktoru Kevin Makqouen məlumat verib. Direktorun sözlərinə görə, xəbərdarlıq yalnız Kalabasas və Aqura-Hillz şəhərlərinin sakinləri, həmçinin Los Anceləsin Uest-Hillz rayonunda olanlar üçün nəzərdə tutulub.



Donald Tramp

## "ABŞ-nin ən yaxşı və gözəl əraziləri yanır"

Bu cür kuryoz hadisənin baş verməsi isə həm yerli sakinləri, həm də hökumətin rəqiblərini qəzəbləndirib.

ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp Los-Ancelesdəki güclü yanğınlar fonunda Kaliforniya qubernatoru Gevin Nyusomun istefa verməli olduğunu bildirib. Tramp bu barədə "Truth Social" şəbəkəsində yazıb.

O qeyd edib ki, ABŞ-nin ən yaxşı və gözəl əraziləri tamamilə yanır. "Onlar külə çevrilib və Gevin istefa verməlidir. Bütün bunlar onun günahıdır!!!" - yeni seçilmiş prezident əlavə edib.

### 150 MİLYARD DOLLARLIQ ZİYAN

Yanğının vurduğu zərər isə rekord həddədir. Dəyən iqtisadi zərər 135-150 milyard dollar təşkil edə bilər. Bu barədə "AccuWeather" konsaltinq şirkətinin nümayəndəsi Bill Veydell məlumat verib. "AccuWeather" Cənubi Kaliforniyada meşə yanğınları nəticəsində ümumi zərər və iqtisadi itkilərlə bağlı ilkin qiymətləndirməsini 135-150 milyard dollara qədər artırıb", - o bildirib.

Məlumata görə, şirkət daha əvvəl dəymiş ziyanı 52-57 milyard dollar qiymətləndirib. "AccuWeather" nümayəndəsinin sözlərinə görə, şirkətin meteoroloqları gələn həftə də regionda güclü küləyin və meşə yanğınları təhlükəsinin davam edəcəyini proqnozlaşdırır.

## Yanğınlar nəticəsində ölənlərin sayı bilinmir

Yanğınların miqyasının böyüklüyü və əlaqənin itməsi səbəbindən ölüm halları ilə bağlı da qeyri-müəyyənlikdir. Bu faktı rəsmilər də etiraf edirlər. Məhkəmə-tibbi ekspertiza xidməti məlumat verib ki, Los-Ancelesi bürüyən yanğınlar nəticəsində ən azı 10 nəfər həlak olub. "Həlak olanların kimliyinin müəyyənləşdirilməsi



prosesi bir neçə həftə çəkə bilər, çünki məhkəmə-tibbi ekspertiza departamenti yanğın şəraiti və təhlükəsizlik səbəbləri ilə əlaqədar müəyyən ərazilərə giriş əldə edə bilmir", - qurumun məlumatında vurğulanıb.

Los-Anceles dairəsinin şerifi Robert Luna xəbərdarlıq edib ki, yanğınlar davam etdiyi üçün nə qədər insanın həlak ola biləcəyi hələ məlum deyil: "Ölümlərin araşdırılması üzrə qruplar bu ərazilərə daxil ola bilməyənə qədər həlak olanların dəqiq sayı məlum olmayacaq".

Yüksək hərarət, öskürək, şiddətli baş ağrısı, ürəkbulanma, baş gicəllənməsi, halsızlıq

# QORXMAYAQ, AMMA QORUNAQ

Ölkədə yayılan xəstəlik kəskin respirator virus infeksiyasıdır. Yəni, yuxarı tənəffüs yollarının kəskin iltihabı xəstəliyidir. Bu xəstəliyi törədən viruslar 200-ə qədərdir. Həkimlər təşvişə əsas olmadığını deyirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yenə qış fəsli, yenə virus, yenə biz... Pandemiyadan sonra demək olar ki, hər payız-qış fəslində virusla daha ciddi mübarizə aparır, cəmiyyətdə kütləvi şəkildə yayılan xəstəliyin mənbəyini araşdırmağa çalışırıq. Yüksək hərarət, öskürək, şiddətli baş ağrısı, ürəkbulanma, baş gicəllənməsi, ishal, halsızlıq... Müşahidə olunan bu simptomlar cəmiyyəti təşvişə salıb. Çünki Çində yayılan yeni virus metapnevmovirusun (HMPV) əlamətlərinə çox bənzəyir və insanlar yenidən COVID19 günlərinə geri qayıtmağın narahatlığını yaşayırlar. Üstəlik, dünya mətbuatında bu virusun COVID19-dan daha təhlükəli və daha çox yayılma potensialı olduğu da vurğulanır.

Hazırda ölkədə yayılan virusun mənşəyi, simptomları, mübarizə yolları ilə bağlı mütəxəssislərlə söhbətləşdik.

### AZ DA OLSA, YENİ KORONAVİRUS İNFEKSİYASINA YOLUXMA HALLARI VAR

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, hazırda az da olsa, yeni koronavirus infeksiyasına yoluxma hallarına rast gəlinir: "Hazırda mövsümlə əlaqədar fəsli qrip (A qripi, infuyenza), müxtəlif növ kəskin respirator virus infeksiyaları və az da olsa yeni koronavirus infeksiyasına yoluxma hallarına rast gəlirik. Bu tip virusların klinik mənzərəsi çox oxşardır. Çünki onların törətdikləri xəstəlik zamanı əsasən tənəffüs yolları zədələnir. Yəni, xəstələrin əksəriyyətində ümumi əlamətlərlə (hərarətin yüksəlməsi, halsızlıq, zəiflik, iştahanın itməsi, sümük, oynaq, əzələ ağrıları və sair) yanaşı, kataral əlamətlərə də (boğaz ağrısı, öskürək, burun axması və ya tutulması) rast gəlinir".




## HMPV yeni deyil

Mütəxəssis bildirir ki, metapnevmovirus mövsümi xarakter daşıyan qripəbənzər respirator xəstəlikdir və bu infeksiya yeni deyil: "İndiyədək payız-qış aylarında müxtəlif səviyyəli xəstələnmə halları törədib, əsasən sağlam insanlarda fəsadsız keçir və qısa müddət ərzində sağalır. Yalnız risk qrupuna daxil olan insanlarda - kiçik yaşlı uşaqlar, immundefisitli, ağır xroniki, birinci növbədə tənəffüs yollarının bronxial astma, xroniki obstruktiv bronxit kimi xəstəlikləri olan, 65 yaş üzəri şəxslərdə xəstəlik bəzən ağır keçə bilər. Bu halda virus aşağı tənəffüs yollarını zədələyərək bronxiolit və pnevmoniya ilə fəsadlaşa bilər ki, bu da əlverişsiz nəticələrə gətirib çıxarır".

## Bu xəstəliyi törədən viruslar 200-ə qədərdir



Təyyar Eyvazov Mərdan Əliyev

İnfeksionist vurğulayır ki, qriplə müqayisədə HMPV infeksiyası daha yüngül keçir: "Hazırda Azərbaycanda HMPV infeksiyası qeydə alınmayıb. Kəskin respirator virus infeksiyalarından qorunmaq yolları universaldır. Spesifik tədbir vaksinasiyadır ki, ölkəmizdə qripə qarşı effektiv vaksinlərlə birinci növbədə risk qrupları peyvənd olunurlar. Hazırda ölkəmizdə Səhiyyə Nazirliyinin xətti ilə qripə qarşı kifayət qədər effektiv və təhlükəsiz olan peyvəndlər gətirilib və ambulator-poliklinik yardım göstərən tibb müəssisələrinə paylanılıb. Səhiyyə Nazirliyi risk qrupuna aid olan vətəndaşları mövsümi qripə qarşı peyvənd olunmağa çağırır".

### SAĞLAM HƏYAT TƏRZİ, STRESDƏN UZAQ OLMAQ

T.Eyvazov xəstəliyin əlamətləri olduqda maskadan istifadə, sosial məsafənin gözlənilməsi, əl və respirator gigiyena qaydalarına kütləvi şəkildə əməl olunması ilə yoluxma hallarını minimallaşdırmağı mümkün hesab edir: "Bundan başqa, sağlam həyat tərzi, vitamin-mineral tərkibli qidalar, streslərdən yayınmaq kimi tədbirlər də əhəmiyyətlidir. Bunlar immun sistemini daim işlək vəziyyətdə saxlamaqla insana kömək edə bilər".

İnfeksionist Mərdan Əliyev də təsdiqləyir ki, ölkədə yayılan xəstəlik kəskin respirator virus infeksiyasıdır: "Yəni, yuxarı tənəffüs yollarının kəskin iltihabı xəstəliyidir. Bu xəstəliyi törədən viruslar 200-ə qədərdir. Hər virusun özünə xas gediş xüsusiyyətləri olduğu üçün biz təxminən hansı virus olduğunu deyə bilirik. İndiki virus qripə oxşayır. Hansı ki, qrip kəskin respirator virus infeksiyaları içində ən ağır gedişə malik olanıdır. Müalicəyə tabe olmaması, daha uzun sürməsi, simptomların ağırlığı, bədən hərarətinin yüksəlməsi, əzələ oynaq ağrılarının daha çox müşahidə edilməsi bu virusun qrip olmasını deməyə əsas verir".

### ƏGƏR HMPV OLSA İDİ...

İnfeksionist deyir ki, HMPV qripdən dəfələrlə yüngül virusdur: "Əgər HMPV olsa idi, yoluxanlar daha tez sağalardı. Düzdür, 2-3 yaşa qədər uşaqlar və 65 yaş üstü şəxslərdə ağır gedişə malik olur, bəzən də pnevmoniya ilə ağırlaşa bilir. Amma sağlam şəxslərdə adətən heç bir problem olmur, yüngül simptomlarla gedir".

BU İLDƏN FERMERLƏR QARĞIDALI ÜÇÜN MƏHSUL SUBSİDİYASI DA ALA BİLƏCƏKLƏR

# QARĞIDALIYA MARAQ ARTACAQ

Qarğıdalı üçün əvvəllər yalnız əkin subsidiyası verilirdi. Artıq fermerlər məhsul subsidiyası da alacaqlar. Lakin bu hüquqdan heç də bütün fermerlər yararlana bilməyəcəklər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Aqrar Subsidiya Şurası məhsul subsidiyası verilən bitkilərin siyahısını genişləndirir. Şuranın qərarına əsasən, 2025-ci təsərrüfat ilindən başlayaraq fermerlər qarğıdalıya görə, əkin subsidiyası ilə yanaşı, məhsul subsidiyası da ala biləcəklər. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb. Qeyd olunub ki, məhsul subsidiyası qarğıdalıdan nişasta, qlükoza, yağ və fruktoza istehsal edən müəssisələrə verilən məhsula şamil ediləcək. Öz torpaq sahəsində qarğıdalı yetişdirən və məhsulu belə müəssisələrə təhvil verən fermerlər əkin subsidiyası ilə yanaşı, təhvil verdikləri qarğıdalının hər tonuna görə 50 manat məhsul subsidiyası alacaqlar.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci ildə müasir suvarma sistemləri ilə təmin olunmuş sahələrdə qarğıdalı becərilməsinə görə fermerlərə hər hektara görə 290 manat, müasir suvarma sistemləri quraşdırılmamış qarğıdalı sahələrinə görə isə hər hektara 230 manat əkin subsidiyası ödəniləcək. Təkrar qarğıdalı əkinlərinə görə isə fermerlərə hər hektar üçün 120 manat subsidiya ödənilməsi nəzərdə tutulur. Maraqlıdır, yeni qərarı şərtləndirən amillər hansılardır? Bundan sonra sözügedən sahədə nələr gözlənilir?

**AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ FƏRQLİ ƏMSAL**

Kənd Təsərrüfatı Nazirliyindən bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə qarğıdalı əkinlərinə görə fərqli əmsallar müəyyənləşib: "Növbəti təsərrüfat ilindən azad olunmuş ərazilərdə müasir suvarma sistemləri ilə təmin olunmuş sahələrdə qarğıdalı əkinlərinə görə hər hektara 400 manat, müasir suvarma sistemləri ilə təmin olunmamış ərazilərdə qarğıdalı əkinlərinin hər hektarına görə 140 manat subsidiya ödəniləcək".

Nazirlikdən qeyd edildi ki, Azərbaycanda tək qarğıdalı əkinləri deyil, bütün əkinlər subsidiyalaşdırılır: "Subsidiya dövlət dəstəyidir. Fermerin xərclərinin bir hissəsinin dövlət tərəfindən qarşılanması mexanizmidir. Stimullaşdırma tədbiri olduğuna görə fermerlərə müsbət təsir edəcəyi gözlənilir".

## HƏM QİDA, HƏM DƏ YEM BAZASI

İqtisadçı Cəfər İbrahimli düşünür ki, qarğıdalı olduqca faydalı xammaldır: "Qarğıdalıdan qida kimi istifadə olunur. Yağ, nişasta və digər məhsullar alınır. Heyvandarlıqda yem bazası kimi də istifadəsi nəzərdə tutulur. Bu baxımdan, məhsula görə subsidiyanın verilməsi nəzərdə tutulur ki, qarğıdalının istehsal müəssisələrinə təhvil verilməsinə maraq artsın. Müəssisələrə verilməsə də, qarğıdalının həm dənindən, həm də silosundan istifadə olunur. Maldarlıqda qarğıdalı silosu olmadan süd məhsuldarlığı əldə etmək mümkün deyil. Bu baxımdan qarğıdalıya subsidiya və güzəştlərin edilməsi çox müsbət hadisə kimi qiymətləndirilməlidir".

C.İbrahimlinin fikrincə, məhsul subsidiyalarının verilməsi reallaşandan sonra fermerlərin əldə etdikləri gəlirlər də artacaq: "Əkin subsidiyaları hər əkilən sahəyə görə verilir. Əkin subsidiyasında qarğıdalının hansı məqsədlə əkildiyinin fərqi yoxdur. Məhsul subsidiyası isə fermerlərin maraqlı olması üçündür. Məhsulun becərilməsinə qatqı məqsədi daşıyır. Əgər məhsul qida üçün emala gedirsə, hər iki subsidiya növündən yararlana bilərsiniz. Amma heyvandarlıq üçündürsə, yalnız əkin subsidiyaları şamil edilir. Qida kimi daha çox məhsul istehsal ediləcək, dəyər yaradacaq. Həmçinin təsərrüfat sahələrinin inkişafına dəstək olacaq. Qarğıdalının hətta atılan hissəsindən də istifadə edilir deyə, heç nə itkiyə getmir".

## "Əkin subsidiyaları artırılmalıdır"

İqtisadçı bildirdi ki, məhsul subsidiyası ilə müqayisədə əkin subsidiyaları olduqca azdır: "Düşünürəm ki, qarğıdalıya ayrılan subsidiya arpa və buğda ilə müqayisədə daha çox olmalıdır. Çünki onun istehsal xərcləri daha çoxdur. O səbəbdən subsidiya həcmi iki dəfə artırılmalıdır. Lakin görürük ki, arpa və buğdaya verilən qədər əkin subsidiyası ayrılır. Nəzərə almalıyıq ki, qarğıdalıda yerli toxumlarımız standartlara cavab verə bilmir. Əkilən qarğıdalı toxumlarının 80 faizə yaxını xaricdən gətirilir. O isə olduqca baha başa gəlir. Fermerlər üçün əlavə xərc olduğunu nəzərə alsaq, əkin subsidiyaları artırılmalıdır. Məhsul subsidiyası üçün isə 50 manat normal məbləğdir".




## "SUVARMA SİSTEMLƏRİNƏ DƏ DƏSTƏK OLMAQ LAZIMDIR"

Ekspert düşünür ki, qarğıdalı ilə bağlı təsərrüfatlarda xeyli inkişaf mövcuddur: "Son 10 ilə yaxındır məhsuldarlıq artıb. Dənlik qarğıdalının məhsuldarlığı 10 ton üzərinə çıxır, əvvəl 3-4 ton güclə olurdu. Silosluq qarğıdalıda da hər hektardan 60-70 ton məhsul götürülə bilir. Bu da fermerlərin əməyi nəticəsində baş verib. Düşünürəm ki, dəstək bir az da artırılsa, proses daha da inkişaf edər".

C.İbrahimli bu sahədəki həll edilməli digər məsələlərə də toxundu: "Qarğıdalının suya çox ehtiyacı var. Onların suvarma sistemlərinə də dəstək olmaq lazımdır. Heyvandarlıq təsərrüfatları üçün bu qidaların əkilməsinə yer ayrılmalıdır. Hansı ki, özləri qarğıdalı yetişdirsinlər və ondan da yem kimi istifadə etsinlər. Belə olduqda, daha sərfəli yem bazalarını formalaşdırmış olarlar. Bu baxımdan qarğıdalı əkinlərinin artırılması vacibdir".

QANUNSUZ TİKİLİLƏRİN SƏNƏDLƏŞDİRİLMƏSİ PROSESİ ASAN OLMAYACAQ

# YARIM MİLYON ƏMLAKI ƏHATƏ EDƏCƏK TƏKLİFLƏR

Sənədsiz evlərin sənədləşdirilməsi yenə gündəmdədir. Bununla bağlı yeni qanun və təkliflər hazırlanır. Ekspertlər isə prosesin heç də asan olmayacağı qənaətindədirlər.

SEVİNC ABBASOVA



Sənədsiz evlər probleminin həlli ilə bağlı yeni təkliflər var. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Rüstəm Şahbazovun sözlərinə görə, pandemiya səbəbindən qeyri-qanuni tikililərin inventarlaşdırılması prosesi tam başa çatdırıla bilməyib: "İnventarlaşdırma zamanı toplanmış ilkin məlumatlara əsasən, ölkə üzrə 400 minə yaxın qeyri-qanuni tikilinin olduğu qeyd edilir və hazırda bu rəqəm dəqiqləşdirilir".

### MÜVAFİQ QANUN LAYİHƏSİ HAZIRLANIR

R.Şahbazov əlavə edib ki, mühafizə zonalarına düşən tikililərlə bağlı vəziyyət daha fərqli yanaşma tələb edir: "Yüksək gərginlikli elektrik xətləri, qaz və su boruları, avtomobil yolları kimi ərazilərdə yerləşən tikililər xüsusi mühafizə zonalarına daxil edilir və fərqli normativlərlə tənzimlənir. Hər yaşayış məntəqəsi üçün spesifik şərtlər mövcuddur və bu sahələrdə yerləşən tikililərin hüquqi statusunun müəyyən edilməsi üçün xüsusi standartların təsdiq edilməsi üzərində işlər davam etdirilir. Vahid kadastr sistemi vasitəsilə müvafiq dövlət orqanlarının təqdim etdiyi məlumatlar əsasında hansı tikililərin mühafizə zonalarına düşdüyü müəyyən edilir. Hazırda bu istiqamətdə müvafiq qanun layihəsinin hazırlanması prosesi gedir". Yanvarın 1-dən "Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun da qüvvəyə minib. Bu qanunla kənd təsərrüfatı təyinatlı torpaqlarda yalnız kənd təsərrüfatı məqsədli və müvəqqəti yaşayış təyinatlı tikililərin inşasına icazə veriləcək. Eyni zamanda, torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi ilə bağlı müraciətlər elektron qaydada "vahid pəncərə" prinsipi əsasında həyata keçiriləcək.

Bəs görəsən, yeni qaydalardan kimlər yararlana biləcək? 400 minə yaxın evin sənədləşdirilməsi prosesini hansı müddətə qədər başa çatdırmaq mümkün olacaq?

### PROSES ASAN OLMAYACAQ

"Rieltorlar Assosiasiyası" İctimai Birliyinin sədri Elnur Azadov bildirib ki, qanunsuz tikililərin sənədləşdirilməsi prosesi asan olmayacaq. Çünki bu, kökü dərin olan bir problemdir: "Hazırda belə tikililərin sayı yarım milyondan çoxdur. Vətəndaşların əllərində ayrı-ayrı dövlət qurumları tərəfindən verilmiş sənədlər var. Güman edirəm ki, ilkin sənədləri olan əmlaklar üzərində mülkiyyət hüququnun tanınması çətin olmayacaq. Yaxın vaxtlarda bu istiqamətdə işlərə başlanılacaq və ilkin sənədi olanların mülkiyyət hüququ tanınacaq".

Ekspertin fikrincə, heç bir sənədi olmayan tikililərin sənədləşdirilməsi məsələsi sual altındadır: "Bu evlərin leqallaşdırılması qəliz məsələdir, zaman aparacaq. Yaxın beş ildə prosesin həlli mümkün görünmür. Çünki həmin tikililər arasında gələcəkdə leqallaşdırılması mümkün olmayan daşınmaz əmlaklar var. Söhbət qırmızı zonada tikilən evlərdən gedir. Yeni qaydalardan həmin əmlak sahibləri yararlana bilməyəcəklər".

## Qarabağda şəhərsalma prosesi sürətlənəcək

Ekspert vurğulayıb ki, bu qaydalar işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin daha da sürətlənməsinə imkan yaradacaq: "Bir neçə müddətdir ki, böyük şəhərlərin baş planları hazırlanır. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin də baş planları hazırlanır və təsdiq olunur. Bu ərazilərdəki torpaqların çoxu kənd təsərrüfatı təyinatlıdır. Onların dövlət tərəfindən tikinti və şəhərsalma qanunvericiliyinə uyğun olaraq təyinatlarının dəyişdirilməsi məsələsi baş tutmalıdır ki, həmin ərazilərin yaşayış məntəqələrinə çevrilməsinə qanun icazə versin. Yəni, 2025-ci ildən bu istiqamətdə qanunvericiliyin dəyişdirilməsində birinci məqsəd budur. Bunun fonunda ölkənin digər ərazilərində yaşayış məntəqələrinə çevrilmiş kənd təsərrüfatı təyinatlı torpaqların avtomatik olaraq təyinatının dəyişdirilməsi üçün müvafiq qurumlar tərəfindən normativ-hüquqi sənədlərin hazırlanması prosesi gedəcək. Bu, həmçinin sənədsiz evlərin sənədləşdirilməsi istiqamətində atılacaq növbəti addım olacaq".

## Fərdi müraciət xaotik vəziyyət yarada bilər

Ekspert hesab edir ki, bununla bağlı müraciət fərdi qaydada qəbul edilərsə, effekti olmayacaq: "Xüsusi portalın yaradılması nəzərdə tutulur. Məqsəd prosesi asanlaşdırmaq, vətəndaş məmnuniyyətini artırmaqdır. Amma müraciətlər fərdi qaydada qəbul ediləcəksə, effekt verməyəcək. Məsələn, Bakı şəhərinin ətrafında salınmış qəsəbə tipli Şuşa şəhərciyində təxminən 2000-ə yaxın tikili var. Həmin qəsəbə kənd təsərrüfatı təyinatlı torpaqda salınıb. Vaxtilə bu torpaqlar bələdiyyənin balansında olubsa, sənədləşmə ilə bağlı müraciət də həmin qurum tərəfindən edilməlidir".

Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı isə deyib ki, bu ilin yanvarından qüvvəyə minən yeni qaydalar daha çox kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin təyinatı üzrə istifadəsinin optimallaşdırılması məqsədi daşıyır:

"Deyək ki, bir vətəndaşın kənd təsərrüfatı təyinatlı torpaq sahəsi var. Amma məqsədli istifadə növü əkinçilikdir. Yeni qanunla mülkiyyətçi Dövlət Xidmətinə elektron qaydada müraciət edərək tutaq ki, bağçılığı əkinçiliyə, əkinçiliyi bağçılığa dəyişdirəcək. Mülkiyyətçinin beş hektar və daha artıq kənd təsərrüfatı təyinatlı torpaq sahəsi varsa, həmin torpaq sahəsinin bir faizini keçməmək şərtilə yalnız kənd təsərrüfatı məqsədli və müvəqqəti yaşayış təyinatlı tikililərin inşasına icazə veriləcək".

Onun sözlərinə görə, sənədsiz evlərin sənədləşdirilməsi yalnız yeni hazırlanan qanun layihəsindən sonra mümkün olacaq və müraciətlərin qəbulu elektron qaydada həyata keçiriləcək.

### REAL NƏTİCƏLƏR YOXDUR

Daşınmaz əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, torpaqların təyinatlarının dəyişdirilərək yaşayış məntəqələri təyinatlı torpaqlara çevrilməsindən sonra onların üzərində tikilən evlərə çıxarışların verilməsi mümkün olacaq: "Bu günə kimi bu istiqamətdə müəyyən addımlar atılsa da, real nəticələr yoxdur. Ümid edirik ki, bu dəfə olacaq. Məsələnin yubanması vətəndaşlarla yanaşı, dövlət üçün də ziyandır. Dövlət bu sahədən əmlak və torpaq vergisindən gəlir götürə, sığorta şirkətləri bu tip əmlakları sığortalaya bilmir..."




Foto: Arif Quluzadə - Global Photostock

# ŞƏXSİ MƏLUMATLARIMIZ TƏHLÜKƏDƏDİR?

**İnformasiya resurslarında aşkarlanan boşluqlar 42 faiz artıb. Bu statistika insanlarda həmin sistemlərdə əks olunan şəxsi məlumatların oğurlanması ehtimalının artmasına dair narahatlıq yaradır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ötən ilin yanvar-sentyabr aylarında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin apardığı yoxlamalar və monitorinqlər nəticəsində dövlət qurumlarının 625 informasiya resursunda təhlükəsizlik boşluqları aşkarlanıb. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 15,3 faiz çoxdur. Tək 2024-cü ilin sentyabrında isə 78 informasiya resursunda təhlükəsizlik boşluqları aşkarlanıb ki, bu da bir il əvvələ nisbətən 42 faiz çoxdur. Xatırladaq ki, bu rəqəm hər il artan istiqamətdə inkişaf edir. Dövlət qurumlarının informasiya sistemlərində boşluqların olması nə ilə əlaqədardır? Bu boşluqların olması saxlanılan məlumatlarımızın təhlükəsizliyini risk altına atırmı?

İnformasiya Kommunikasiya Texnologiyaları mütəxəssisi Fərhad Mirəliyevin sözlərinə görə, təhlükəsizlik boşluqları dedikdə, hansısa proqram və yaxud aparat təminatında olan boşluqlar nəzərdə tutulur: "O boşluqlar vasitəsilə informasiya sistemlərinə müdaxilə etmək mümkündür. Məsələn, hər hansı özəl və ya dövlət müəssisəsinin saytı var və müəyyən proqram təminatı ilə çalışır. Bu proqram təminatında boşluq olanda istehsalçısı onu istifadəçilər üçün əlçatan etdiyi anda kodları müxtəlif şəxslər tərəfindən analizlərə məruz qalır. Kodların araşdırılması nəticəsində müəyyən olunur ki, proqram təminatını kodlayan şəxs orada boşluqlara yol verib və müdaxilə etmək olur. Sonra isə bu boşluqlar aşkarlanır və aradan qaldırılır".

## BOŞLUQLARI YARADAN SƏBƏBLƏR

Ekspertin fikrincə, təhlükəsizlik boşluqları insan məsuliyyətsizliyinin, yaxud bu sahədə kifayət qədər məlumatı olmayan mütəxəssisin yol verdiyi xəta nəticəsində yarana bilər: "Məsələn, məlumatların olduğu proqram təminatının yerləşdiyi server otağının qapısı açıq qalarsa, yaxud orada təhlükəsizliklə bağlı tələblər gözlənilmirsə, buradakı boşluğun səbəbi mütəxəssisdir. Yaxud proqram təminatını hazırlayanlar problemi öncədən görə bilmir və sonradan həmin kodların xətalı olduğu üzə çıxır. Bunu da aradan qaldırmaq üçün yenilənmələr edilir". F.Mirəliyev boşluqların hər il artmasına da münasibət bildirdi: "Boşluqların ildən ilə artmasının səbəbi odur ki, bundan əvvəl daha az müəssisələr yoxlanılırdı, yaxud daha az informasiya sistemləri var idi. Məsələn, hər hansı təşkilatın keçən il saytı yox idisə, bu il artıq var. Keçən il hansısa informasiya sistemində boşluq olmayıb, lakin bir il sonra proqram təminatı yenilənməyib deyə, hakerlər və ya digər təşəbbüs qrupları tərəfindən təhlükəsizliklə bağlı boşluqlar aşkarlanır".



## Həm təhlükədəyik, həm də deyilik

Ekspertin sözlərinə görə, təhlükəsizlik boşluğu aşkarlanıbsa, deməli, həmin informasiya sistemləri və onların yerləşdiyi şəbəkələr və alt şəbəkələr risk qrupuna aid edilir. Məsələn, hər hansı bir saytda təhlükəsizlik boşluğu var və bu aradan qaldırılmayıbsa, orada hər an insident baş verə bilər: "Sayt müəssisənin daxilində və ya kənarda yerləşdirilə bilər. Kənardadırsa, orada qorxu yoxdur, çünki mühit qorunur. Amma ola bilər ki, kənarda qorunan saytlardan biri ələ keçirilsin. Bu zaman digərlərinə də daxil ola bilərlər. Daxildədirsə, bu zaman şirkətin bütün infrastrukturu risk altına düşür. Orada informasiya sistemləri saxlanılırsa, risk yaranır. Amma bu hallar nisbidir. Konkret "təhlükədəyik" deyə bilmərik".

F.Mirəliyev bildirdi ki, təhlükəsizlik boşluqlarının aradan qaldırılması üçün kompleks tədbirlərin icra olunması tələb edilir: "Hər bir standartın tələblərinin yerinə yetirilməsi nəticəsində təhlükəsizliklə bağlı riskləri azaltmış olurlar. Məsələn, proqram təminatında yeniləmələr icra olunmursa, bu, edilməlidir".


Fərhad Mirəliyev

## TƏHLÜKƏSİZLİYİ ARTIRMAQ ÜÇÜN NƏ ETMƏLİYİK?


Şahin Əliyev

Kibertəhlükəsizlik platformasının rəhbəri Şahin Əliyevin fikrincə, köhnə proqram təminatlarında təhlükə riski yüksək idi, lakin hazırda onlar demək olar ki, aradan qaldırılıb: "Həm özəl, həm də dövlət qurumlarında islahatlar başlayıb, yeni proqramlar inkişaf etdirilir. Bəzi proqramların daxilində də versiyası köhnə olan datalar yenilənir. Köhnə versiyalarda müəyyən qədər boşluq ola bilir. Bu da istifadə olunan kodlaşma dilinin versiyalarına görədir. Heç bir şəkildə yüz faizlik təhlükəsizlik mövcud deyil. İslahatlar, yeni sistemlərin tətbiqi təhlükəsizliyi artırmaq üçündür. Yəni hazırda böyük risklər yoxdur".

Ş.Əliyev bildirdi ki, əslində boşluqların aşkarlanması müsbət hadisədir: "Sistemlərdə olan boşluqlar aşkarlanırsa, bu, ölkəmizdə kibertəhlükəsizliyin inkişaf etdiyini göstərir. Bunun qarşısının alınması üçün də yeni texnologiyalar istifadə olunur. Boşluqların yaranma səbəbləri inkişafdır. Artıq ölkəmiz qlobal miqyasda kibertəhlükəsizlik üzrə 195 ölkə arasında 12-13-cü yerlərdədir".

Ekspertin sözlərinə görə, unudulan və yaxud dövlət qurumlarının daxilində olan saytların bəzilərinin versiyaları köhnədir. Bu səbəbdən qurumlar çalışmalıdırlar ki, sistemlərini daim yeni tutsunlar: "İstifadə olunan kodlara baxılmalıdır. Həm özəl, həm də dövlət qurumları bunun üçün sistemlərinə yatırım etməlidirlər".

# DƏSTƏ KİÇİLİR, QİYMƏTİ ARTIR

Paytaxt və rayonlardakı bazarlarda göyərti qıtlığı yaşanır, bahalaşma müşahidə olunur. Qiymət artımı ilə yanaşı, göyərti dəstələrinin ölçüsü də kiçilib.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Qida rasionumuzun bir parçası da göyərtilərdir. Göyərtilərdən müxtəlif salatlar və dadlı təamların hazırlanmasında istifadə olunur. Son zamanlar bazarlarda göyərti çeşidlərinin azaldığı nəzərə çarpır. Üstəlik, qiymətlər əvvəllər dəstəyə görə 15-20 qəpik arası olsa da, indi 23-25 qəpikdir. Qiymət artımı ilə yanaşı, göyərti dəstələrinin ölçüsü də kiçilib. Artıq bir dəstədəki göyərti sayı bəzən bir neçə saplaqla məhdudlaşır. Bunu əsasən reyhan və göy soğanlarda daha çox müşahidə etmək mümkündür. Maraqlıdır ki, bu tendensiya tək Bakıda yox, elə paytaxtı göyərti ilə təmin edən əsas rayonlarda da müşahidə edilir. Bəs bu vəziyyətə səbəb nədir?

### DƏSTƏLƏRİN KİÇİK OLMASININ SƏBƏBİ MÖVSÜMLƏ BAĞLIDIR

Satıcı Famil Əhmədovun sözlərinə görə, hazırda göyərtilərdən ən bahası reyhandır. Dəstəsinin qiyməti 50 qəpikdir. Digər göyərtilərin bir dəstəsinin qiyməti isə 25 qəpiydir. Dəstələrin kiçik olmasının səbəbi isə mövsümlə bağlıdır.

Meyvə-tərəvəz dükanı işlədən Əli İsmayılov isə göyərtilərin qiymətlərinin dəyişmədiyini vurğuladı: “Qiymətlərdə hazırda artım mövcud deyil. Bayrama görə sahələrdə göyərti az idi. Yalnız bu səbəbdən həmin dövrdə artım oldu. İndi isə qiymətlər əvvəlki vəziyyətinə qayıdıb”.

Eyni ərazidə göyərti satan Səkinə Nuriyeva isə deyir ki, havalar isinəndə bazar yenidən canlanacaq: “Qışdır, rayonlarda qar yağır deyə göyərti bu qədər azdır. Biz məhsulu Bərdədən gətiririk. Göyərtinin bir dəstəsi 20 qəpikdir. Martda havalar isinəndə bolluq olur. Qiymətlər də həmin dövrdə enəcək”.



Eldar Hüseynov

### GÖYƏRTİNİ 80 FAİZ BAHALAŞDIRAN SƏBƏBLƏR

Kənd təsərrüfatı eksperti, sahibkar Eldar Hüseynovun sözlərinə görə, bayram göyərti sektoruna da öz təsirini göstərib: “Bayram olması ilə əlaqədar işçilər sahələrə çıxmadı. Beləliklə, bazarda qıtlıq yarandı. Bundan da bəzi işbazlar istifadə etdilər və qiymətləri qaldırdılar. Bu ərəfədə Azərbaycandan Rusiya bazarına gedən göyərti də çoxaldı. Məhsulun böyük qisminin Rusiya bazarlarına axını başladı. Məsələn, qırmızı kahı deyilən göyərtinin qiyməti Azərbaycan bazarında iki gün ərzində 80 faiz bahalaşdı. Qara reyhan da xeyli bahalaşdı”. Ekspertin fikrincə, bayramdakı bahalaşmadan əvvəl havaların da qeyri-mülayim keçməsi öz sözünü demişdi: “Son 20 gündə güclü şaxtalar oldu və həmin dövrdə əkinçilər hazırlıqsız yaxalandılar. Gündüz yağışlar yağdı, gecə güclü şaxtalar oldu. Şirvanda əkilən şüyüd, Bakı kəndlərində, Bərdədə açıq sahələrdə əkilən göyərtilər məhv oldu. Yalnız istixanalarda olan məhsullar qaldı. Bakı kəndlərində və Şəmkirdə istixanalarda göyərtilər boldur. Bu da onu deməyə əsas verir ki, tədricən bu məhsulların qiyməti enəcək”.

## “BAZARLARA ÇIXARILARKƏN NƏZARƏT YOXDUR”

E.Hüseynov dəstələrin niyə kiçilməsi məsələsinə də aydınlıq gətirdi: “Göyərti əkinləri əsasən Bakı kəndlərindən başlayıb. Həmin ərazilərdə də göyərtilər kiçik bağlanılır. Hazırda bazarlarda üstünlük Bakı göyərtilərindədir. İri dəstələri Bərdə və Şəmkir zonasında bağlayırlar. Onların da göyərtiləri Rusiyaya göndərilir. Bakı göyərtisinin üç dəstəsi Bərdə göyərtisinin bir dəstəsi boydadır. Bazarlarda da rayondan göyərtiləri alıb, bir böyük dəstədən üç kiçik dəstə düzəldirlər”.

Müsahibimizin sözlərinə görə, bazarın tələbləri indiki halda belə olduğu üçün heç nə etmək mümkün deyil: “Göyərti bazarlara çıxarılarkən nəzarət yoxdur. Hər şey yalnız insanların vicdanına qalır. Məsələn, gələcəkdə müxtəlif göyərti çeşidləri fərqli üsullarla satıla bilər. Xarici ölkələrdə buzun içində saxlanılır, onlar üçün xüsusi soyuducular mövcuddur və bəzi ölkələrdə göyərtilər dəstə ilə deyil, kilo ilə satılır. Amma hazırda tendensiya belədir və insanlar da bunu belə qəbul edib”.

## “EV TƏSƏRRÜFATLARINA DƏSTƏK OLMALIDIR”

İqtisadçı Pərviz Heydərov hazırkı problemin səbəbini bütün təsərrüfatların istixana şəraitində ola bilməməsində görür: “Göyərti əkinləri əsasən fərdi təsərrüfatlarda olur. O səbəbdən onlara nəzarət olunmasını düzgün hesab etmirəm. Göyərti haqqında danışdıqda mövsümü də nəzərə almalıyıq. Çünki fərdi təsərrüfatların heç də hamısında soyuq və şaxtalı havada göyərti yetişdirmək mümkün deyil. İstixana formasında yetişdirmək də elə asan olmur. Qış mövsümündə məhsulların keyfiyyətinin aşağı olması, qiymətinin yüksəlməsi təbii qəbul olunmalıdır. Amma keyfiyyəti aşağı düşən sadəcə göyərti deyil. Bu tendensiya digər kənd təsərrüfatı məhsullarında da müşahidə edilir”.



Pərviz Heydərov

İqtisadçının fikrincə, ev təsərrüfatlarına da müəyyən dəstək məqsədli addımlar atılarsa, bu sahədə qiymətləri az-çox tənzimləmək mümkün olar: “Bazarda məhsulların daha keyfiyyətli və bol olması, qiymətinin münasib olması kimi məsələlərlə bağlı ev təsərrüfatlarının fəaliyyətinə xüsusi diqqət yetirmək lazımdır. Yəni, yalnız iri fermer təsərrüfatları olmalı deyil. Bəzən olur ki, fərdi təsərrüfatlarda yetişən məhsul daha keyfiyyətli olur. İri təsərrüfatlardan çıxan məhsullar qiymət cəhətdən də fərqlənir”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 80
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
11 YANVAR ŞƏNBƏ 2025

Bu qış transfer pəncərəsinin Super Liqada çox hərəkətli keçəcəyi ehtimal edilir. Klubların mövsümün qalan hissəsindəki performansı məhz edilən transferlərdən asılı olacaq.



# SUPER LİQA NƏHƏNGLƏRİ "ULDUZ OVUNDA"

Dünya futbolunda qış transfer pəncərəsi açılıb. Artıq klublar heyəti gücləndirmək istiqamətində əməli addımlara başlayıblar. Son illər Avropada səs-küylü keçidlərlə gündəmə gələn Türkiyə Super Liqası təmsilçiləri də aktivlikləri ilə seçilirlər. Bu qış da Türkiyə nəhənglərinin bir neçə iddialı transfer həyata keçirəcəyi gözlənilir.

**"FƏNƏRBAĞÇA" UĞUR AXTARIŞINDA**

Transfer xəbərlərinin ən çox yayıldığı klub "Fənərbağça"dır. 17 turdan sonra 39 xal toplayan və Super Liqanın lideri "Qalatasaray"dan səkkiz xal geri qalan "bülbüllər" mövsümün qalan hissəsində bu fərqi aradan qaldırmaq istəyirlər. Bu səbəbdən heyətin gücləndirilməsi istiqamətində addımlar atılır. Baş məşqçi Joze Mourinyo müdafiə, yarımmüdafiə və hücum mövqelərinin gücləndirilməsini istəyib. Əsas axtarışlar da məhz bu istiqamətlərdədir. Şaiyələrə inansaq, müdafiənin mərkəzi üçün Dieqo Karlos ("Aston Villa"), Yaka Biyol ("Udineze"), Kevin Danso ("Lans"), Aymerik Laport ("Əl-Nəsr"), Mario Hermoso ("Roma") kimi ulduz oyunçulardan ibarət siyahı üzərində iş gedir. "Fənər" tezliklə bu keçidlərdən birini yekunlaşdırmaq istəyir. Eyni zamanda, müdafiənin sol cinahının da gücləndirilməsi nəzərdə tutulur.



MARİO HERMOSO

## "QALATASARAY"IN ƏSAS HƏDƏFLƏRİ

Super Liqanın lideri "Qalatasaray" yenidən "nöqtə transfer"lər etməyi hədəfləyir. Əslində, komanda Türkiyədə ən kompakt heyətə malik kollektivdir. Bu səbəbdən "sarı-qırmızılılar" xüsusi canfəşanlıq göstərmirlər. Hazırda klubda əsas prioritet Viktor Osimhenin qalmasıdır. Bununla belə, klubun gündəmində bir neçə ulduz var. Buraya Milan Şkrinyar və Paulo Dibalanı aid etmək olar. Hər iki oyunçu ilə bağlı fərqli situasiya mövcuddur. Şkrinyar PSJ-də oynamaq şansı qazanmır. O, bu vəziyyətdən narazıdır və tezliklə komandasını dəyişmək istəyir. Slovakiyalı mərkəz müdafiəçisinin İngiltərə və İtaliyadan da müştəriləri var. Dibala isə "Roma"nın əsas fiqurlarındandır. Komandanın yeni baş məşqçisi Klaudio Ranyeri argentinalı oyunçu olmadan komandasını düşünə bilmədiyini açıqlayıb. Bu, "canavarlar"ın oyunçunu buraxmaq niyyətində olmadığı anlamına gəlməlidir. Bundan başqa, hücum xəttinə "Fənərbağça"nın da maraq göstərdiyi Markus Reşford və "Lion"da uğurlu çıxışı ilə diqqət çəkən Jorj Mikautadzenin cəlb olunması gündəmdədir.

**DİGƏR KLUBLARIN FƏALİYYƏTİ**

Mövsümün uğursuzlarından olan "Trabzonspor" da vəziyyəti dəyişmək üçün qollarını çırmalayıb. Bir neçə ulduz futbolçu ilə danışıqlar aparan Qara dəniz təmsilçisi xüsusilə hücum xəttini gücləndirmək niyyətindədir. Əsas hədəf "Fənərbağça"dan Cengiz Ünderi heyətə qatmaqdır. Eyni zamanda klub "Milan"dan Samuel Çukvueze və "Şaxtyor"un cinah oyunçusu Aleksandr Zubkovla danışıq aparır.

"Başakşəhər", "Göztəpə" kimi klubların aktivliyi fonunda ilk yarıda istədiyi performansı sərgiləyə bilməyən "Beşiktaş" da susqunlardandır.



MİLAN ŞKRİNİAR

CENGİZ ÜNDERİ

**BÖYÜK TRANSFERLƏR GÖZLƏNİLİR**

Ümumən bu qış transfer pəncərəsinin Super Liqada çox hərəkətli keçəcəyi ehtimal edilir. Klubların mövsümün qalan hissəsindəki performansı məhz edilən transferlərdən asılı olacaq. Hələlik tamamlanan keçid olmasa da, yanvarın sonuna qədər bir neçə böyük transferin həyata keçməsi istisna edilmir. Düzdür, qonşu ölkə klublarının maliyyə vəziyyətləri ilə bağlı heç də xoş xəbərlər gəlmir. Məsələ ondadır ki, Super Liqa komandalarının borcları çox böyükdür. Bununla belə, onlar transferlərə böyük pullar xərcləməyə çəkinmir, ulduz oyunçulara ciddi məvacib ödəyirlər.

## "FƏNƏRBAĞÇA" TALİSKANI GÖZLƏYİR

Joze Mourinyo orta xətdə yaradıcılığın artırılması üçün də transfer istəyir. Hazırda bu mövqeyə əsas namizəd Anderson Taliskadır. Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunda çıxış edən braziliyalı türkiyəli azarkeşlərə "Beşiktaş"dakı oyunundan tanışdır. O, hazırda yaxşı formadadır. Taliska "Əl-Nəsr"də bu mövsüm səkkiz qol vurmağı bacarıb. Mütəxəssislər 30 yaşlı futbolçunun "Fənərbağça"nın hücumlarına rəngarənglik qatacağı fikrindədirlər. Futbolçu özü də Türkiyəyə qayıtmağa isti yanaşır.

"Fənərbağça" hücum xəttini gücləndirmək üçün də çalışmaları davam etdirir. Burada əsas namizəd "Mançester Yunayted"in forvardı Markus Reşforddur. Lakin ingilis hücumçunun müştəriləri çoxdur. Son xəbərlərə görə, "Milan"ın yeni baş məşqçisi Serxio Konseysan da onu sərəncamında görmək istəyir. "Fənərbağça"nın bu rəqabətdən qalib ayrılacağı asan görünmür. Lakin klub nəyin bahasına olursa-olsun, hücumçu transfer etmək istəyir. Yussef En-Nesiri və Edin Cekonun performansı pis deyil, lakin bosniyalının yaşının çox olması klubu axtarışlara vadar edir. Hazırda Aleksandr Mitroviç və Conatan Devid variantları müzakirə olunur. Eyni zamanda, Cengiz Ünder, Alan San-Maksimin, Samet Akaydın kimi oyunçulara yaxşı təkliflər var. Onların gedişi halında klub yaranacaq boşluqları doldurmaq üçün əlavə addımlar atmalı olacaq.



MARKUS REŞFORD